*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır | 3 aprel 2019-cu il | № 25 (2342) | Qiyməti 30 qəpik


# Prezident, Ali Baş Komandan İlham Əliyev Müdafiə Nazirliyinin Xüsusi Təyinatlı Qüvvələrinin "N" hərbi hissəsində olub

*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev aprelin 2-də Müdafiə Nazirliyinin Xüsusi Təyinatlı Qüvvələrinin "N" hərbi hissəsində olub.*



AZƏRTAC xəbər verir ki, Müdafiə naziri general-polkovnik Zakir Həsənov və Müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi, general-polkovnik Nəcməddin Sadıkov Ali Baş Komandan İlham Əliyevə raport verdilər.

Dövlətimizin başçısı əvvəlcə burada ulu öndər Heydər Əliyevin büstünün önünə gül dəstəsi qoyaraq xatirəsini dərin ehtiramla yad etdi.

Müdafiə naziri general-polkovnik Zakir Həsənov Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə hərbi hissədə aparılan yenidənqurma işləri barədə məlumat verdi.

Bildirildi ki, bu hərbi hissənin ərazisində qərargah binası, yeməkxana, əsgər yataqxanası yenidən qurulub, müasir təlim mərkəzləri yaradılıb. Hərbi hissənin ərazisində, eyni zamanda, burada xidmət edən ailəli hərbi qulluqçular üçün yeni yaşayış binaları, subay hərbçilər üçün isə müasir tələblərə cavab verən yataqxanalar inşa olunub. Dövlətimizin başçısına məlumat verildi ki, burada yeni binaların da tikintisi nəzərdə tutulur.

Sonra Prezident İlham Əliyev hərbi hissənin xüsusi hazırlıq təlim meydanında xüsusi təyinatlıların döyüş hazırlığını izlədi.

Son illərdə Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin diqqəti sayəsində Azərbaycan Ordusunun döyüş qabiliyyətinin artırılması, maddi-texniki bazasının, silah-sursat arsenalının müasirləşdirilməsi istiqamətində çox mühüm və tarixi işlər görülüb. Şübhəsiz ki, bütün bu uğurların əldə edilməsində, Silahlı Qüvvələrimizin müasir standartlara cavab verən peşəkar orduya çevrilməsində Azərbaycanın iqtisadi inkişafı vacib rol oynayır. Təbii ki, güclü ordunun yaradılması həm də güclü hərbi-sənaye kompleksinin mövcudluğu ilə şərtlənir. Prezident İlham Əliyevin rəhbərliyi ilə 2005-ci ildə ölkədə müdafiə sənayesinin əsasının qoyulması və bu sahədə istehsal yönümlü müəssisələrin fəaliyyətə başlaması Azərbaycan Ordusunun maddi-texniki bazasını daha da möhkəmləndirib. Dövlətimizin başçısının diqqəti nəticəsində yaradılan müdafiə sənayesi kompleksi Azərbaycanda ən müasir hərbi texnikanın istehsalına geniş imkanlar açıb. Təsadüfi deyil ki, indi ölkəmizin silah-sursatları bir çox parametrlərinə görə dünyada ilk yerlərdən birini tutur.

Azərbaycanda ordu quruculuğuna dair bütün mühüm tədbirlər ardıcıl surətdə, dünya təcrübəsi nəzərə alınmaqla həyata keçirilir. 2003-cü ildən Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanı, Prezident İlham Əliyevin rəhbərliyi ilə Silahlı Qüvvələrin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində atılan addımlar bu gün milli ordumuzun dünyanın ən qüdrətli ordularının sırasına daxil olmasına imkan yaradıb. Görülən işlərin nəticəsidir ki, bu gün Azərbaycan Silahlı Qüvvələri dünyanın ən güclü 50 ordusu sırasındadır. Bu faktı beynəlxalq hərbi tədqiqat mərkəzləri də təsdiqləyir. Şübhəsiz ki, Azərbaycan bu uğura hərbi potensialın gücləndirilməsi, qoşun birləşmələrinin döyüş hazırlığının müasir standartlar səviyyəsində qurulması sayəsində nail olub.

İndiyədək ordunun döyüş qabiliyyətinin daha da artırılması, əməliyyat işləri üzrə hazırlığın gücləndirilməsi, idarəetmənin təkmilləşdirilməsi ilə bağlı birlik və birləşmələrin xeyli sayda komanda-qərargah təlimi keçirilib. Bu təlimlərə Silahlı Qüvvələrin müxtəlif qoşun birləşmələri cəlb olunub. Ordumuzun gücünü son illərdə keçirilən hərbi paradlarda nümayiş etdirilən canlı qüvvə və hərbi texnikadan da görmək olur. Bu hərbi texnika ilə Azərbaycan Ordusu Ali Baş Komandanın əmrinə əsasən istənilən an düşmənə sarsıdıcı zərbə vuraraq, torpaqlarımızı işğaldan azad etmək iqtidarındadır. Bunu 2016-cı ildə cəbhədə baş verən hadisələr də göstərdi. Azərbaycan qoşunlarının mövqelərini dağıdıcı silahlardan, ağır artilleriyadan atəşə tutan düşmən layiqli cavabını aldı. Bu döyüşlər Azərbaycan Ordusunda yüksək mənəvi-psixoloji hazırlığın olduğunu üzə çıxardı. Aprel döyüşlərinin ən mühüm nəticəsi həm də ondan ibarət oldu ki, Ağdərənin, Cəbrayılın, Füzulinin işğaldan azad olunmuş ərazilərində Azərbaycan bayrağı dalğalandı. Mətin ordumuz 1992-ci ildən erməni silahlı birləşmələrinin işğal etdiyi Şərur rayonunun Günnüt kəndini də qəhrəmanlıqla azad etdi. Əlahiddə Ümumqoşun Ordunun əkshəmləsi nəticəsində Xunut dağı və Ağbulaq yüksəkliyi, Qızılqaya dağı və Mehridağ işğaldan azad olundu, ümumilikdə 11 min hektara yaxın ərazi nəzarət altına alındı. Bütün bu uğurlar isə Azərbaycan Ordusunun qüdrətini göstərir. Çünki ölkəmizin güvənc yeri, qürur, ləyaqət rəmzi və özünütəsdiq imkanı olan Azərbaycan Ordusu xalqımızın milli düşüncəsində ali və müqəddəs ucalıqda dayanır, dövlətimizin varlıq, mövcudluq və milli kimlik meyarı kimi çıxış edir. Xalqımızın Silahlı Qüvvələrə olan inamı isə ölkəmizin milli təhlükəsizliyinin təmin olunmasında ordunun şəxsi heyətinə böyük etimad yaradır.

Sonra Prezident İlham Əliyev hərbi qulluqçularla görüşdü.

Ali Baş Komandan görüşdə çıxış etdi.

- Əziz zabitlər, mən sizi ürəkdən salamlayıram.

Bu gün hərbi hissə ilə tanışlıq mənə çox xoş təəssürat bağışladı. Son illərdə hərbi hissə əsaslı şəkildə yenidən quruldu, təlim prosesi üçün bütün lazımi şərait yaradıldı. Bu, bir daha onu göstərir ki, bu gün Azərbaycan Ordusu uğurla inkişaf edir, ordu quruculuğu prosesi sürətlə gedir, bizim hərbi hissələrimiz yenidən qurulur, yenidən tikilir, ordumuz ən müasir texnika ilə təchiz edilir. Bu da təbiidir, çünki biz müharibə şəraitində yaşayırıq, müharibə hələ bitməyib, müharibənin birinci mərhələsi başa çatıb. Bu gün Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır.

Aprel döyüşlərindən 3 il keçir. Aprel döyüşləri tariximizin şanlı səhifəsidir. Döyüşlər zamanı itkilərimiz də olub, Allah bütün şəhidlərimizə rəhmət eləsin. Yaralı hərbçilərimizin müalicəsi, bərpası üçün dövlət əlindən gələni əsirgəməyib və yaralanmış bütün hərbçilər xoşbəxtlikdən normal həyata qayıtdılar. Onların müalicəsi, bərpası, aktiv həyata qayıtmaları üçün bütün lazımi işlər görülmüşdür.

**(Ardı 2-ci səhifədə)**

AZƏRBAYCAN ORDUSU

# Prezident, Ali Baş Komandan İlham Əliyev Müdafiə Nazirliyinin Xüsusi Təyinatlı Qüvvələrinin "N" hərbi hissəsində olub

(Əvvəli 1-ci səhifədə)

Aprel döyüşləri bizim böyük tarixi qələbəmizdir, müasir tariximizdə ən uğurlu hərbi əməliyyatlardan biridir. Yaxşı bilirsiniz ki, döyüşlərə qədər Ermənistan silahlı qüvvələri işğal edilmiş ərazilərdən bizim yaşayış məntəqələrini, hərbi mövqelərimizi daim atəşə tuturdu. Ermənistanın təxribatının qarşısını almaq üçün Azərbaycan Ordusu çox uğurlu əməliyyat keçirmiş və vaxtilə işğal edilmiş Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının bir hissəsini işğalçılardan azad etmişdir. Minlərlə hektar torpaq işğalçılardan azad edildi, on minlərlə hektar ərazi nəzarətimizə keçdi. Vaxtilə işğal edilmiş torpaqlarda bu gün Azərbaycan bayrağı dalğalanır. Döyüşlər zamanı hərbçilərimiz peşəkarlıq, qəhrəmanlıq göstərmişlər. Bir daha göstərmişlər ki, Azərbaycan əsgəri, zabiti həm peşəkardır, həm Vətənə bağlıdır, həm də istənilən anda öz vəzifə borcunu yerinə yetirməyə hazırdır. Aprel döyüşləri hərbi cəhətdən çox uğurlu əməliyyat idi. Çünki əlverişsiz mövqelərdən bizim hərbçilərimiz çox önəmli strateji yüksəklikləri işğalçılardan azad etmişlər. Eyni zamanda, bu döyüşlərin mənəvi-psixoloji baxımdan da böyük əhəmiyyəti vardır. Çünki uzun illər ərzində Ermənistan təbliğatı belə bir mif yaradırdı ki, onlar hərbi cəhətdən bizdən üstündür. Aprel döyüşləri bütün dünyaya göstərdi ki, Azərbaycan Ordusu bu gün ən yüksək keyfiyyətlərə malikdir və istənilən anda istənilən vəzifəni icra edə bilər. Ermənistanın yaratdığı mif tamamilə darmadağın edildi.

Bizim mülki vətəndaşlarımız da döyüşlər zamanı qəhrəmanlıq göstərmişlər. Bir neçə mülki şəxs Ermənistanın təxribatı nəticəsində həlak olmuşdur, yüzlərlə ev sıradan çıxmışdır, yandırılmışdır. Biz bütün bu evləri qısa müddət ərzində bərpa etdik. Döyüşlərdən sonra getdiyim həmin o təmas xəttinə yaxın yerləşən kəndlərdə vətəndaşlarla görüş əsnasında gördüm ki, bu vətəndaşlarda nə qədər milli ruh var, bunlar nə qədər qorxmaz insanlardır, atəş altında qalaraq öz doğma evlərini, kəndlərini tərk etməmişlər.

Döyüşlər nəticəsində Cocuq Mərcanlı kəndinə yeni həyat verildi. Cocuq Mərcanlı qısa müddət ərzində yenidən quruldu, 150 fərdi ev, məktəb, uşaq bağçası, tibb məntəqəsi, Şuşa məscidinin bənzəri olan məscid tikildi, yeni iş yerləri yaradılır. Yəni, Cocuq Mərcanlıya həyat qayıdıb. Bu, bir daha onu göstərir ki, Azərbaycan xalqı bu vəziyyətlə heç vaxt barışmayacaq. Bu, bir daha onu göstərir ki, hər bir Azərbaycan vətəndaşı bir arzu ilə yaşayır - bizim işğal altındakı torpaqlarımız tezliklə azad olunsun və Azərbaycan öz ərazi bütövlüyünü bərpa etsin.



Əfsuslar olsun ki, müstəqilliyimizin ilk illərində bizim torpaqlarımız işğal altına düşmüşdür. Bunun səbəbi də odur ki, o vaxt hakimiyyətdə olan qüvvələr öz yarıtmaz fəaliyyəti ilə imkan verdilər ki, Ermənistan torpaqlarımızı zəbt etsin. AXC-Müsavat cütlüyünün xəyanətkar fəaliyyəti nəticəsində işğal edilmiş torpaqlarda Ermənistan silahlı qüvvələri möhkəmləndi, Ermənistanla Dağlıq Qarabağ arasında canlı bağlantı yaradıldı və düşmənə imkan verdi ki, öz işğalçılıq siyasətini davam etdirsin. Ancaq ulu öndər Heydər Əliyev hakimiyyətə qayıdandan sonra vəziyyətdə dəyişiklik edildi, uğurlu Horadiz əməliyyatı aparıldı. Horadiz əməliyyatı nəticəsində 20-dən çox yaşayış məntəqəsi işğalçılardan azad edildi. Bu gün Horadiz şəhəri və həmin o kəndlər çiçəklənir, canlanır, orada ən yüksək səviyyədə işlər görülür.

Ordu quruculuğu prosesinə start verildi. Bu gün ordu quruculuğu baxımından Azərbaycan dünyanın güclü ölkələrindəndir. Qeyd etdiyim kimi, sonuncu reytinqə əsasən Azərbaycan Ordusu dünya miqyasında öz potensialına görə 52-ci yerdədir. Ötən il keçirilmiş iki hərbi parad bizim hərbi qüdrətimizi göstərdi. Ordumuz üçün ən müasir silahlar, texnikalar alınır, ordumuzun döyüş qabiliyyəti artır. Aprel döyüşləri bunun bariz nümunəsidir. Ordumuz üçün nə lazımdırsa, biz onu edirik və edəcəyik. Ötən il uğurlu Naxçıvan əməliyyatı keçirilmişdir. Bu əməliyyat nəticəsində biz strateji yüksəkliklərə sahib olmuşuq. Bu yüksəkliklər imkan verir ki, biz çox böyük əraziyə nəzarət edək. Uğurlu Naxçıvan əməliyyatı bir daha göstərdi ki, ordumuz peşəkardır, ordumuzun döyüş qabiliyyəti yüksək səviyyədədir.



Bütün bunlar reallıqdır. Bu gün hər bir Azərbaycan vətəndaşı haqlı olaraq Azərbaycan Ordusu ilə fəxr edə bilər və biz əsgərlərimizlə, zabitlərimizlə fəxr edirik. Azərbaycan Ordusu dövlətimizin ərazi bütövlüyünün qorunması işində rol oynayan əsas amildir.

Hərbçilərin məişət problemləri həll olunur. Buna da böyük diqqət göstərilir. Keçən ilin sonunda 300-dən çox hərbçiyə yeni mənzillər verildi. Bu günə qədər yüzlərlə hərbçi dövlət tərəfindən mənzillərlə təmin edilib. Bu proses davam etdirilir. Eyni zamanda, hərbi hissələrin yenidən qurulması prosesi geniş vüsət almışdır. Son illərdə bir çox hərbi hissələrin şəhərciklərinin açılışında olmuşam. Hər yerdə səviyyə yüksəkdir, şərait çox gözəldir, o cümlədən bu hərbi hissədə. Burada mənə əvvəlki illərdə olan vəziyyəti əks etdirən fotoşəkillər təqdim olundu. Əlbəttə ki, vəziyyət çox ağır idi. Ancaq mənim xüsusi tapşırığım əsasında hərbi hissə qısa müddət ərzində yenidən quruldu, burada yaxşı şərait yaradıldı. Həm burada çalışanlar, həm yataqxanalarda qalanlar üçün gözəl şərait yaradıldı. Onu da bildirməliyəm ki, bizim hərbi hissələrimizdə mülki işlərdə mülki vətəndaşlar çalışır, bu da yenilikdir. Beləliklə, biz hərbçiləri, onların fəaliyyətini əsas vəzifə borcuna yönəltmişik, eyni zamanda, 20 minə yaxın mülki şəxs işlə təmin edilmişdir.

O ki qaldı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə, burada bizim mövqeyimizdə heç bir dəyişiklik yoxdur. Bu münaqişə yalnız ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. Dağlıq Qarabağ bizim əzəli, tarixi torpağımızdır. Əsrlər boyu xalqımız bu torpaqlarda yaşayıb, qurub, yaradıb. Bu gün bütün dünya Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır. Bütün mötəbər beynəlxalq təşkilatlar müvafiq qərar və qətnamələr qəbul etmişlər. Bu, tarixi və hüquqi əsasdır. Heç bir ölkə qondarma "Dağlıq Qarabağ respublikası"nı tanımayıb, əminəm ki, tanımayacaqdır.

Ona görə danışıqların davam etdirilməsinin məqsədi işğal edilmiş torpaqların azad olunmasıdır. Siz bilirsiniz ki, Ermənistanın yeni rəhbərliyi danışıqların formatını dəyişdirmək istəmişdir. Verilən bəzi bəyanatlar da ictimaiyyət üçün bəllidir. Ancaq Azərbaycanın birmənalı mövqeyi bunu mümkün etməmişdir. Münaqişə Ermənistan ilə Azərbaycan arasındadır. Bizim torpaqlarımızı Ermənistan işğal edibdir. İşğal edilmiş torpaqlarda qarşı tərəfdə hərbçilərin 80 faizi Ermənistan vətəndaşlarıdır. Ona görə danışıqlar prosesi də iki ölkə arasında aparılmalıdır və aparılır. Son Vyana görüşü, o cümlədən ona görə önəmli idi ki, bu mövcud formatı bir daha təsdiqlədi. Həm xarici işlər nazirləri arasında aparılan danışıqlar, həm də rəhbərlik arasında keçirilmiş görüş bir daha onu göstərir ki, bu, Ermənistan-Azərbaycan münaqişəsidir. Biz hər dəfə bu münaqişə ilə bağlı sözümüzü deyəndə bu münaqişəni belə də adlandırırıq: Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi.

Haqq-ədalət, tarixi həqiqət bizim tərəfimizdədir. İqtisadi güc də, hərbi güc də bizim tərəfimizdədir. Son illərdə görülmüş işlər, hərbi sahədə aparılan islahatlar, hərbi gücümüzün artırılması, həm siyasi meydanlarda, həm də döyüş meydanlarında qələbələr bizi daha da ruhlandırır, daha da gücləndirir.

Siz - burada xidmət göstərən hərbçilər öz vəzifə borcunuzu çox yaxşı bilirsiniz, yaxşı başa düşürsünüz. Siz ən ağır döyüşlərdə iştirak etmisiniz, qəhrəmanlıq, şücaət göstərmisiniz. Dövlət sizin fəaliyyətinizi yüksək qiymətləndirir. Mən Sizi əldə edilmiş uğurlar münasibətilə təbrik edirəm, sizə və ordumuza yeni uğurlar, yeni qələbələr arzulayıram. Sağ olun.

* * *

Müdafiə naziri general-polkovnik Zakir Həsənov şəxsi heyət adından ordu quruculuğuna göstərdiyi diqqətə görə Ali Baş Komandana minnətdarlığını bildirərək dedi:

- Cənab Ali Baş Komandan.

Azərbaycan Ordusunun bütün şəxsi heyəti adından Sizə dərin minnətdarlığımızı bildiririk. Orduda keçirdiyiniz islahatlar ordunun döyüş qabiliyyətinin artırılmasına, nizam-intizamın güclənməsinə və şəxsi heyətin sosial bazasının yüksək səviyyədə təşkil olunmasına yönəlib. Bu gün Azərbaycan Ordusunun bütün uğurları yalnız bu islahatlar nəticəsində mümkün olmuşdur.

Bu gün şəxsi heyət Sizin orduya göstərdiyiniz diqqət və qayğını gündəlik həyatında hiss edir və Sizin etimadınızı doğrultmaq üçün hər an hər bir əmrinizi yerinə yetirməyə hazırdır və qadirdir.

Diqqətinizə görə çox sağ olun.

* * *



Sonra Prezident İlham Əliyevə xüsusi təyinatlıların geyim formaları, xüsusi təchizatı və ərzaq normalarının nümunələri təqdim olundu. Yüksək döyüş qabiliyyəti, mənəvi-psixoloji hazırlığı və vətənpərvərliyi ilə seçilən Azərbaycan Ordusunun hərbi qulluqçularının sosial məsələlərinin həlli, onların xidmətkeçmə və hazırlıq səviyyələrinin daha da yüksəldilməsi istiqamətində də son illərdə dövlətimiz tərəfindən mühüm addımlar atılıb.

# Azərbaycanın Müdafiə naziri BMT-nin toplantısında iştirak edib




*ABŞ-da işgüzar səfərdə olan Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov martın 29-da BMT-nin Sülhməramlı Əməliyyatlarını yerinə yetirən ölkələrin Müdafiə nazirlərinin Nyu-York şəhərində keçirilən toplantısında iştirak edib.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, dünyada sülhməramlılığın qorunmasına dair keçirilən görüşlərin davamı və bu sahədə qlobal miqyasda görülən işlərin daha da sürətləndirilməsi xarakteri daşıyan toplantıda beynəlxalq sülhün və təhlükəsizliyin qorunub saxlanılması, dövlətlər arasında dostluq münasibətlərinin inkişaf etdirilməsi, beynəlxalq əməkdaşlığa nail olunması və digər məsələlər müzakirə olunub.

Toplantıda, həmçinin sülhməramlı əməliyyatların planlaşdırılması işinin daha da yaxşılaşdırılmasına, qəbul edilən qərarların icrasına dərhal başlanılmasına, BMT sülhməramlılarının gələcək təminatına və təlimlərinə, münaqişə zonalarında mülki əhalinin, xüsusilə qadın və uşaqların qorunmasına dair fikir mübadiləsi aparılıb.

* * *

ABŞ-a işgüzar səfəri çərçivəsində Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov martın 29-da BMT Baş katibinin qanunun aliliyi və təhlükəsizlik institutları üzrə köməkçisi Aleksandr Zuyev ilə görüşüb.




Görüşdə Azərbaycanın BMT çərçivəsində fəaliyyəti, həmçinin sülhməramlılarımızın müxtəlif missiyalarda iştirakı, o cümlədən beynəlxalq sülhün və təhlükəsizliyin dəstəklənməsinə verdiyi töhfə yüksək qiymətləndirilib və hərbi qulluqçularımızın sülhməramlı əməliyyatlarda iştirakının perspektivləri müzakirə olunub.

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Naxçıvan Qarnizonu qoşunlarında avtomobil texnikasına baxış müsabiqəsi keçirilib

Naxçıvan Qarnizonu qoşunlarında istismarda olan avtomobil texnikasına baxış müsabiqəsi keçirilib, qaliblər müəyyənləşdirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, müsabiqəyə ordu, birləşmə və hərbi hissələrə təhkim edilmiş müxtəlif markalı və təyinatlı minik avtomobilləri, mikroavtobus və avtobuslar cəlb edilib.

## Aprelin 1-dək Silahlı Qüvvələrin Yardım Fonduna daxil olan vəsait

Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 17 avqust tarixli 755 nömrəli Fərmanı ilə təsdiq edilmiş Silahlı Qüvvələrin Yardım Fonduna cari il aprelin 1-dək 98.386.852,81 AZN, 213.577,88 ABŞ dolları, 16.036,0 avro və 5000,0 rubl vəsait daxil olub.

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***1 aprel 2019-cu il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 30 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Dovex, Şavarşavan kəndlərində və adsız yüksəkliklərdə, İcevan rayonunun Berkaber kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Kəmərli, Qaymaqlı, Fərəhli, Aşağı Əskipara, Qızılhacılı, Cəfərli kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

İşğal altında olan Ağdam rayonunun Şıxlar, Mərzili, Füzuli rayonunun Qorqan kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam, Xocavənd və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

***2 aprel 2019-cu il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 24 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Voskevan kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Kəmərli, Qızılhacılı kəndlərində, Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Ağbulaq kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Ağdam rayonunun Baş Qərvənd, Füzuli rayonunun Horadiz, Cəbrayıl rayonunun Nüzgar və Mehdili kəndləri yaxınlığında, həmçinin Tərtər və Ağdam rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

*“Vətənə, xalqa və dövlətə xidmət ömrümüzün mənasıdır”*

# “İşğalın sonuna az qalıb”

*Bu günlərdə başa çatan genişmiqyaslı təlimlər həm ordumuzun gücünü təsdiqlədi, həm də şəxsi heyətin mənəvi-psixoloji hazırlığının səviyyəsini. Bu təlimlər mənim üçün əlavə amalı ilə əlamətdar oldu. Müdafiə naziri mənə də hədiyyə təqdim etdi. Belə hədiyyəni almağı hər bir hərbçi arzulayır. Bunun üçün hərbi nizamnamələrə, komandirlərin göstərişlərinə ciddi, məsuliyyətlə əməl etməlisən.*



Müddətli hərbi xidməti başa vurduqdan sonra tərxis olundum. Hərbi xidmətə gələnə kimi müəyyən arzularla yaşayırıq və bəzi arzular hərbi xidmətdən sonra da adamın yaxasından əl çəkmir. “Mən də tərxis olunduqdan sonra "yaxamdan əl çəkməyən" arzunun "yaxasından yapışdım". Bir neçə il keçdi. Hərbi xidmət illəri heç zaman yadımdan çıxmırdı. Komandirimiz arada bizə deyirdi: "Vaxt gələcək, bu günlər üçün darıxacaqsınız". Mənim Vətənə gərəkli olmaq üçün yaşayanlara həmişə böyük ehtiramım olub. İstəyirdim ki, cəmiyyət, ictimaiyyət mənə də ehtiram göstərsin. 2016-cı ilin aprel döyüşlərindən az sonra qərarımı verdim, yenidən hərbi xidmətə qayıdacam, müharibə başa çatana kimi hərbi mundirdə olacam, qalib əsgərlərin sırasında tərxis olunacam, ailəmin yanına qalib əsgər kimi qayıdacam.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusuyam. Məsuliyyətlə xidmət edirəm, axı mən hərbi xidmətə müəyyən həyat təcrübəsi aldıqdan sonra, həm də ikinci dəfə qayıtmışdım.

2016-cı ilin aprel döyüşləri Azərbaycan əsgərinin döyüş hazırlığının da, mənəvi-psixoloji hazırlığının da yüksək olduğunu təsdiqlədi. Biz elə xidmət etməliydik ki, bu hazırlıq daha da yüksəlsin. Hər bir əsgər bir amalla xidmət edir: hərbi xidməti Vətənə gərəkli olsun.

Hər birimiz komandirlərimizin əmr və göstərişlərini böyük məsuliyyətlə yerinə yetirməklə, Ali Baş Komandanın döyüş əmrinə tam hazırıq. Bu döyüş Böyük Qələbə ilə nəticələnəcək.

Bu yaxınlarda ordumuzda genişmiqyaslı təlimlər keçirildi. Bizlər də Azərbaycan Ordusunun döyüş və mənəvi-psixoloji hazırlığının yüksək olduğunu sübut edən təlimdə iştirak etdik.

Müdafiə naziri general-polkovnik Zakir Həsənov təlimlərdən sonra mənə də qiymətli qol saatı hədiyyə etdi. Bu, mənim taleyimdə ən dəyərli hədiyyə olacaq. Hərbi qulluqçunun xidməti bəyənilirsə, dəyərləndirilirsə, bu xoşbəxtlikdi. Hərbçilər üçün əsl xoşbəxtlik Böyük Qələbə olacaq. Biz o qələbəni qazanacağıq. Torpaqlarımız işğaldan tamamilə azad ediləcək. İşğalın sonuna az qalıb. Bu, biz hərbçilərin Vətən qarşısında yerinə yetirməli olduğumuz ən layiqli xidmət olacaq...

**Əsgər
Şöhrət ABDURRƏHMANLI,
“N” hərbi hissəsi**

# Hərbi hissə komandirlərinin ideoloji iş və mənəvi-psixoloji təminat üzrə müavinləri ilə metodiki toplantı keçirildi

*Azərbaycan Ordusunun döyüş hazırlığı planına əsasən, martın 29-da hərbi hissə komandirlərinin ideoloji iş və mənəvi-psixoloji təminat üzrə müavinləri ilə metodiki toplantı keçirildi.*

Tədbirdə çıxış edən Müdafiə nazirinin müavini - Şəxsi Heyət Baş İdarəsinin rəisi general-leytenant Kərim Vəliyev ötən ildə hərbi bölmələrdə ideoloji iş və mənəvi-psixoloji təminat fəaliyyətinin və ictimaiyyətlə əlaqələr işinin hərbi qanunvericilik aktlarının tələblərinə uyğun olaraq təşkil olunduğunu xüsusi qeyd etdi. Bildirdi ki, qeyd olunan bu fəaliyyətlər Müdafiə nazirinin tələblərinə müvafiq olaraq komandirlərin və ideoloji iş və mənəvi-psixoloji təminat üzrə zabitlərin daim diqqət mərkəzində olmalıdır.



General-leytenant K.Vəliyev onu da vurğuladı ki, toplantıya cəlb olunan zabit heyəti bundan sonra da öz vəzifə borclarını məsuliyyətlə yerinə yetirəcək, Ali Baş Komandanın və Müdafiə nazirinin şəxsi heyət qarşısında qoyduğu vəzifə və tapşırıqların öhdəsindən layiqincə gəlmək üçün var qüvvələrini əsirgəməyəcəklər.

İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsinin rəisi - Şəxsi Heyət Baş İdarəsi rəisinin müavini general-mayor Rasim Əliyev 2018-ci tədris ili ərzində hərbi vətənpərvərlik tərbiyəsi, mənəvi-psixoloji hazırlıq, hərbi intizamın yüksəldilməsi və digər sahələrdə görülmüş işlər və bu istiqamətdə 2019-cu tədris ilində qarşıda duran vəzifələr barədə ətraflı məruzə ilə çıxış etdi.

Azərbaycan Ordusunda şəxsi heyətin mənəvi-psixoloji hazırlığı işinin təşkili və ideoloji işin aparılması ilə bağlı fikirlərini bildirən idarə rəisi Müdafiə nazirinin daim bu sahəyə ciddi diqqət yetirdiyini, bu məqsədlə günün tələbindən irəli gələrək İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsinin yaradıldığını diqqətə çatdırdı. "Ordu dövlətimizin və dövlətçiliyimizin qarantıdır. Ona görə də ideoloji silahlanma hər zaman öndə olmalıdır. Bu məqsədlə azərbaycançılıq məfkurəsinin və milli ideologiyanın təbliğini əsas tutaraq bu il vacib bir sənəd qəbul edildi. Sizlər mənəvi-psixoloji hazırlığın və ideoloji işin orduda döyüş hazırlığının vacib tərkib hissəsi olduğunu nəzərə alaraq bundan sonra xüsusilə yeni üsullarla işləməlisiniz".

Hərbi vətənpərvərlik duyğularının daha da möhkəmləndirilməsində örnək hesab edilən tədbirlərin mahiyyətindən danışan general-mayor Rasim Əliyev həyata keçirilən fəaliyyətlərin şəxsi heyətin, xüsusilə də gənc əsgərlərin mənəvi-psixoloji hazırlığında mühüm əhəmiyyət kəsb etdiyini dedi. Onu da bildirdi ki, şəxsi heyətin hərbi intizama daha ciddi riayət etməsi ordunun döyüş qabiliyyətinin möhkəmlənməsində ən mühüm amillərdəndir. Buna görə də hərbi xidmət məhz həmin meyarlar əsasında qurulur. "Orduda yüksək hərbi intizamın saxlanılması və şəxsi heyətin döyüş keyfiyyətlərinin artırılması məqsədilə zəruri olan tədbirlər Müdafiə Nazirliyi rəhbərliyinin təsdiq etdiyi döyüş hazırlığı planı əsasında yerinə yetirilir. Mənəvi-psixoloji hazırlıq işinin səmərəliliyini artırmaq, intizamı möhkəmləndirmək, ideoloji iş və mənəvi-psixoloji təminat üzrə komandir müavinlərinin bilik və bacarıqlarını artırmaq qarşımızda dayanan əsas məsələlərdir. Ümumiyyətlə, şəxsi heyətin vətənpərvərlik ruhunu, döyüş əzmini artırmaq ordu rəhbərliyinin diqqət mərkəzindədir və bu istiqamətdə fəaliyyətimizi bundan sonra da səmərəli qurmalı, yeni metod və üsullardan yararlanmalıyıq. Hesab edirəm ki, belə bir mühüm döyüş vəzifəsinin uğurla yerinə yetirilməsində siz zabitlərin də üzərinə böyük məsuliyyət düşür. Hər kəs bu vəzifənin məsuliyyətini dərindən hiss edərək vəzifə və tapşırıqları yerinə yetirmək üçün əlindən gələni əsirgəməməlidir".

Tədbirdə Azərbaycan Ordusunda ideoloji işin təşkili və aparılması, hüquq qaydalarının möhkəmləndirilməsi istiqamətində komandir heyətinin vəzifələri, dövlət sirrinin qorunması, hərbi xidmət təhlükəsizliyinin təmin edilməsi, şəxsi heyətin mənəvi-psixoloji hazırlığı səviyyəsinin artırılması, hərbi intizamın möhkəmləndirilməsi, hərbi qulluqçuların milli-mənəvi dəyərlər ruhunda tərbiyə edilməsi və psixoloji əməliyyatlar mövzularında məruzələr dinlənildi.

Toplantıda, həmçinin qanun pozuntularının, nizamnamədən kənar hərəkətlərin qarşısının alınması məqsədilə tədbirlərin təşkili, hərbi hissələrdə xidmətin günün nizam qaydalarına uyğun yerinə yetirilməsi üçün normal şəraitin yaradılması, sosial ədalət hissinin qorunması, kollektivlərdə münasibətlərin sağlam mühit şəraitində qurulması məsələləri ətrafında da fikir mübadiləsi aparıldı. Qeyd edildi ki, bu fəaliyyətlər Müdafiə nazirinin tələblərinə müvafiq olaraq komandirlərin və ideoloji iş və mənəvi-psixoloji təminat üzrə zabitlərin daim diqqət mərkəzində olmalıdır. İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsinin rəisi - Şəxsi Heyət Baş İdarəsi rəisinin müavini general-mayor Rasim Əliyev tədbiri yekunlaşdırdı və toplantı iştirakçılarına müvafiq tövsiyələrini verdi.

**"Azərbaycan Ordusu"**



# Azərbaycan HHMQ-nın taktiki-xüsusi məşğələləri keçirilib

Bütün sahələrdə inkişaf strategiyasının uğurla həyata keçirilməsi nəticəsində bu gün Azərbaycan Cənubi Qafqazın lider və dünyada ən sürətli inkişaf tempinə malik ölkələrindən biridir.

Dövlət iqtisadiyyatının inkişafı müqabilində bu gün ölkəmizin müdafiə potensialı olduqca güclənib və bu da ordumuzun, o cümlədən Hərbi Hava Qüvvələrinin maddi-texniki bazasının inkişafına və müasirləşməsinə imkan verib.

Son illərdə Hərbi Hava Qüvvələrində ardıcıl strateji və taktiki dəyişikliklər aparılıb. Ölkəmizin hava məkanının fasiləsiz mühafizəsi təmin edilir, düşmənin hər hansı təcavüzü dərhal və qəti dəf olunur. Bu nəticələrin əldə olunmasında Azərbaycan Ordusunda, o cümlədən Hərbi Hava Qüvvələrində kadr potensialının güclənməsi, hərbi peşəkarlığın artırılması və vətənpərvərlik hissləri kimi amillər əhəmiyyətli rol oynayıb.

Azərbaycan Hərbi Hava Qüvvələri dünyada qəbul edilmiş hərbi qurumlarda da, bütün mötəbər təşkilatlarda da tanınır. Son illər Hərbi Hava Qüvvələrinin nümayəndələri NATO-da və ölkəmizdə keçirilən təlimlərdə, taktiki-xüsusi məşğələlərdə yüksək səviyyədə təmsil olunub.

Azərbaycan müstəqillik qazandığı gündən hazırkı dövrədək HHQ inkişaf etməkdədir. Pilotların təlimlərdə və məşğələlərdə iştirakı onların uçuş və döyüş hazırlığını daim artırmaqdadır. Onların döyüş hazırlıqlarının səviyyəsi təlimlərin nəticələrindən bəlli olur.

Ölkəmizdə aparılan hərbi islahatlar nəticəsində hərbi təlim, döyüş hazırlığı özünün bütün parametrləri ilə daha çox əhəmiyyət daşımaqla xüsusi diqqət mərkəzində dayanır. Əsgərlərin istər fiziki, istərsə də mənəvi cəhətdən inkişaf etməsində, hərbi qulluqçu kimi Vətənin müdafiəsinə hazırlanmasında təlimlər, keçirilən məşqlər, döyüş hazırlığı dərsləri xüsusi rol oynayır.

Belə təlimlər Ermənistanın müdafiə naziri David Tonoyanın Nyu-Yorkun erməni diasporunun nümayəndələri ilə görüşdə "ərazilər əvəzinə sülh formatını dəyişərək yeni ərazilər uğrunda yeni müharibə prinsipinə üstünlük verəcəyik. Biz hücum bölmələrinin sayını artıracağıq ki, döyüş əməliyyatlarını düşmən ərazisində apara bilək" sərsəm fikrinə də adekvat cavabdır. Düşmən hər zaman bilməlidir ki, ərazilərin işğaldan azad edilməsi kimi qarşıya qoyulmuş məqsədlərə çatmaq üçün təlim və taktiki-xüsusi məşğələlərə üstünlük verən Azərbaycan Ordusu malik olduğu bütün qüvvə və gücünü düşmənin üzərinə yönəltməyə qadirdir.



Müdafiə nazirinin təsdiq etdiyi 2019-cu ilin döyüş hazırlığı planına uyğun olaraq hava hücumundan müdafiə qoşunlarının son taktiki-xüsusi məşğələləri də bunu deməyə əsas verir.

Məşğələlərdə zenit-raket komplekslərinin divizionları mövqe rayonlarına marş edərək start mövqelərinə yerdəyişmə həyata keçirməsi, ərazinin hazırlanması və maskalanması tapşırıqlarının icra etməsi, vacib obyektlərin hava hücumundan mühafizəsini təmin etməsi, habelə şərti düşmənin raket zərbələrinin dəf edilməsi üzrə tapşırıqlarını yüksək səviyyədə yerinə yetirməsi sübut edir ki, Azərbaycan Ordusu düşmənin "yeni ərazilər uğrunda yeni müharibə prinsipini" də üreyində qoyacaq. Tezliklə üçrəngli Azərbaycan bayrağını tarixi torpaqlarımızda dalğalandıracaq!

**"Azərbaycan Ordusu"**

# Aprel döyüşlərinin üçüncü ildönümü münasibəti ilə hərbi vətənpərvərlik həftəsinə start verilib

*Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi tədbirlər planına əsasən, Azərbaycan Ordusunun 2016-cı ilin aprel döyüşlərində qazandığı qələbənin üçüncü ildönümü münasibəti ilə hərbi vətənpərvərlik həftəsinə start verilib.*






AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, vətənpərvərlik həftəsi çərçivəsində Horadiz şəhərində ucaldılmış "Aprel şəhidlərinə xatirə" abidəsi önündə anım mitinqi keçirilib. Füzuli rayon ictimaiyyətinin, "N" hərbi hissəsinin şəxsi heyətinin, Lələtəpə şəhidlərinin ailə üzvlərinin, müharibə veteranlarının iştirak etdikləri tədbirdə Müdafiə Nazirliyinin zabiti, Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü Abdulla Qurbani "Aprel döyüşləri bizim şanlı tariximizdir" mövzusunda çıxış edərək Azərbaycan Ordusunun qüdrətindən, hərbçilərimizin döyüşlərdə göstərdikləri qəhrəmanlıqlardan bəhs edib. Aprel döyüşlərinin Azərbaycanın hərb tarixində şanlı səhifə təşkil etdiyini deyən A.Qurbani bildirib ki, ordumuzun bölmələri Ermənistan silahlı bölmələrinin cəbhənin müxtəlif istiqamətlərdəki təxribatlarının qarşısını alaraq, əks-hücuma keçib və bir gecədə düşməni ram edərək, onların qürurla adlandırdıqları "Ohanyan xətti"ni yarıb, beləliklə də, ermənilərin uydurduqları mif darmadağın edilib.

Anım mərasimində Füzuli, Cəbrayıl və Xocavənd rayon İcra hakimiyyətlərinin başçıları Alı Alıyev, Kamal Həsənov və Eyvaz Hüseynov, general-mayor Mayis Bərxudarov çıxış edərək, 2016-cı ilin aprelində düşmən üzərində qazanılan qələbənin əhəmiyyətindən danışıb, xalqımızın daha böyük qələbələr qazanacağına əminliklərini ifadə ediblər.

Şəhid ailələrinin nümayəndələri çıxışlarında Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın şəhid ailələrinə daim diqqət və qayğı göstərdiklərini qeyd edərək minnətdarlıqlarını bildiriblər.

Mərasim iştirakçıları "Aprel şəhidlərinə xatirə" abidəsinin önünə əklil və tər çiçəklər qoyaraq, şəhidlərin xatirəsinə ehtiramlarını bildiriblər. Sonra Cocuq Mərcanlıya gedən yolun kənarlarına aprel şəhidlərinin hər birinin xatirəsinə bir çinar ağacı əkilib. Aprel zəfərinin dördüncü ilində çinar ağaclarının yaxınlığında hər bir şəhidin portreti qoyulacaq.

Həmin gün Füzuli rayonunun Alıxanlı kəndində Ermənistan silahlı qüvvələrinin atəşi nəticəsində öldürülən 2 yaşlı Zəhranın və nənəsi Sahibə Allahverdiyevanın xatirəsinə komandanlığın təşəbbüsü ilə yaradılan uşaqlar üçün parkın və abidənin açılışı olub.

Hərbi vətənpərvərlik həftəsi çərçivəsində növbəti tədbir Beyləqan rayon Mədəniyyət Mərkəzində keçirilib. Müharibə veteranlarının, şəhid ailələrinin, Aprel döyüşlərinin iştirakçılarının, hərbi qulluqçuların, Beyləqan, Cəbrayıl və Xocavənd rayon ictimaiyyətinin, Müdafiə Nazirliyinin, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin, hüquq-mühafizə orqanlarının nümayəndələrinin iştirak etdikləri tədbirdə Azərbaycanın Dövlət himni oxunub, respublikamızın müstəqilliyi və ərazi bütövlüyü uğrunda həlak olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra Əməkdar jurnalist, şair-publisist Rəşid Faxralının "Lələtəpə" poeması əsasında ədəbi-musiqili kompozisiya təqdim olunub. Kompozisiyada Gəncə Dövlət Dram Teatrının aktyoru, Xalq artisti Pərvanə Qurbanova, Əməkdar incəsənət xadimi Abdulla Qurbani və Azərbaycan Ordusunun İdeoloji və Mədəniyyət Mərkəzinin heyəti iştirak ediblər.



Tədbirə 2016-cı ilin aprel döyüşlərində, eləcə də keçən ilin mayında Naxçıvan Muxtar Respublikasında uğurlu əməliyyatlarda müstəsna xidmətləri olan hərbi hissələrin döyüş bayraqlarının gətirilməsi alqışlarla qarşılanıb. Əminliklə bildirilib ki, bu bayraqlar tezliklə işğaldan azad ediləcək digər torpaqlarımızda da ucaldılacaq və Bakıya - Azadlıq meydanına gətirilərək qələbə paradında nümayiş olunacaq.

Beyləqan və Xocavənd rayon İcra hakimiyyətlərinin başçıları Asif Ağayev, Eyvaz Hüseynov, general-mayor Mayis Bərxudarov, polkovnik Abdulla Qurbani və şəhid ailələrinin nümayəndələri çıxış edərək Azərbaycan Ordusunun qüdrətindən, 2016-cı ilin aprelində düşmən üzərində qazandığı şanlı zəfərdən danışıb, Lələtəpədə ucaldılan üçrəngli bayrağımızın hazırda işğal altında olan bütün torpaqlarımızda dalğalanacağına əminliklərini ifadə ediblər.

Hərbi vətənpərvərlik həftəsi çərçivəsində növbəti tədbirlər Şəmkir, Qazax və Bakıda keçiriləcək.

# Aprel döyüşlərində yaralanmış hərbçilər və şəhid ailələri dövlətin hərtərəfli qayğısı ilə əhatə olunublar

Azərbaycan tarixinin qürurverici səhifələrindən biri olan 2016-cı il aprel döyüşləri Prezident, Ali Baş Komandan İlham Əliyevin uğurlu siyasəti nəticəsində Azərbaycan Ordusunun hərbi potensialına, döyüş qabiliyyətinə, təchizatına görə qüdrətli ordular sırasında olduğunu bir daha göstərdi. Ermənistan silahlı qüvvələrinin növbəti təxribatına qarşı uğurlu əks-hücum əməliyyatı həyata keçirən Azərbaycan Ordusu minlərlə hektar torpağı işğaldan azad edərək, həmçinin strateji cəhətdən mühüm ərazilərə sahib oldu.

Prezident İlham Əliyev aprel döyüşlərinin dövlətimizin və Milli Ordunun gücünü, xalqımızın birliyini, həmrəyliyini və vətənpərvərliyini nümayiş etdirdiyini vurğulayıb. Həmin döyüşlərdə həlak olmuş qəhrəman Vətən oğullarının - şəhidlərimizin ailələri, yaralanmış əsgər və zabitlər dövlətin hərtərəfli qayğısı ilə əhatə olunublar.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən AZƏRTAC-a verilən məlumata görə, dövlət başçısının tapşırığına uyğun olaraq, şəhid ailələri və həmin döyüşlərdə yaralanaraq əlil olmuş hərbçilərlə bağlı mühüm sosial müdafiə tədbirləri həyata keçirilib. Onlara qanunvericilikdə nəzərdə tutulan qaydada müvafiq sosial təminat növləri, o cümlədən Azərbaycan Respublikası Prezidentinin aylıq təqaüdləri, müavinət və ya əmək pensiyaları, habelə uşaqlarına, eləcə də əmək pensiyası almaq hüququ olmayan şəhid ailəsi üzvlərinə müavinətlər təyin olunub. Şəhid ailələrinə birdəfəlik ödəmələr verilib, onlar üçün Prezidentin aylıq təqaüdünün məbləği mütəmadi olaraq artırılıb. Bu sahədə növbəti mühüm addım kimi 2019-cu il fevralın 1-dən həmin təqaüd 300 manata çatdırılıb. Eləcə də müharibə əlilləri kimi, hərbi xidmət vəzifələrini yerinə yetirməklə əlaqədar əlilliyi olanların, o cümlədən aprel döyüşləri ilə əlaqədar əlilliyi olanlar üçün müavinət və təqaüdlər də bu il aprelin 1-dən 100 faizədək artırılıb.

Eyni zamanda, aprel döyüşlərində yaralanmış əsgər və zabitlərin reabilitasiyasına xüsusi qayğı göstərilir. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın 2016-cı ilin aprel döyüşləri zamanı Azərbaycan Ordusunun yaralanmış bir qrup əsgər və zabiti ilə görüşündə verdiyi tapşırığa uyğun olaraq, həmin döyüşlərdə iştirak edən əsgər və zabitlərin reabilitasiyası sahəsində yüksək səviyyədə işlər aparılıb. Heydər Əliyev Fondunun "2016-cı ilin Aprel döyüşlərində yaralanmış əsgər və zabitlərin yüksək texnologiyalı protezlərlə təmin edilməsi" layihəsi çərçivəsində həmin əsgər və zabitlər Almaniya, İslandiya və İngiltərənin dünyada məşhur protez istehsalçıları kimi tanınan şirkətlərinin yüksək texnologiyalı reabilitasiya məhsulları ilə təmin ediliblər.

Birinci vitse-prezident Mehriban Əliyevanın tapşırığına əsasən, bu ilin fevralında 30-dək hərbçidən ibarət daha bir qrup Qarabağ müharibəsi əlili də protezləşməyə cəlb edilib. Onların hər birinin fərdi xüsusiyyətləri, aktivlik dərəcələri, həyat tərzləri nəzərə alınmaqla yüksək texnologiyalı məhsullar seçilərək təmin olunublar. Reabilitasiya vasitələri ilə təmin olunan həmin Qarabağ müharibəsi əlilləri artıq aktiv həyata geri dönərək əmək fəaliyyətlərini davam etdirir, bir qismi hərbi xidmətlərinə davam edir, ayrı-ayrı əlilliyi olan hərbçilər isə paralimpiya idman növləri ilə məşğul olurlar.

Aprel döyüşlərində şəhid olanların ailələrinin, müharibə əlillərinin digər sahələrdə də qayğı ilə təmin olunması üçün müvafiq işlər aparılır.

# “Aprel döyüşləri xalqımızın qəhrəmanlıq salnaməsidir”

*Azərbaycan Ordusunun qələbəsi ilə bitən aprel döyüşlərindən üç il ötür. 2016-cı ilin aprelin əvvəllərində Ermənistan silahlı qüvvələrinin təxribatlarına cavab olaraq, Azərbaycan Ordusu əks-hücum əməliyyatı ilə düşməni ağır məğlubiyyətə uğratdı, Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının işğal altındakı ərazilərinin 2000 hektardan çox hissəsini azad etdi. Bu döyüşlərin ən böyük tarixi əhəmiyyəti qələbə sayəsində Böyük Qayıdışa start verilməsi oldu. Lələtəpə yüksəkliyinin azad edilməsi nəticəsində Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində əhalinin yaşayışı üçün təhlükə tamamilə aradan qaldırıldı. Aprel döyüşləri bütün dünyaya Azərbaycan Ordusunun gücünü, qələbə əzmini, ədalətin bərpa olunacağını göstərdi. Aprel döyüşlərinin üçüncü ildönümü ərəfəsində həmin döyüşlərdə iştirak etmiş hərbi qulluqçular əməkdaşlarımıza bu tarixi hadisənin əhəmiyyəti barədə danışıb, təəssüratlarını, xatirələrini bölüşüblər.*




**Baş leytenant Elnur Əhmədli:**

- Hələ uşaq vaxtlarımdan ermənilərin Xocalıda törətdikləri vəhşilikləri əks etdirən video-foto materiallara baxdıqca düşmənə nifrətim daha da artırdı. 13 yaşım olanda sənədlərimi Heydər Əliyev adına Hərbi Liseyə təqdim etdim. Valideynlərim bu qərarıma sevinərək, məni dəstəklədilər. Liseyi bitirdikdən sonra Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil oldum. İşğal altında olan torpaqlarımızı azad etmək arzusu məni dərslərə daha da məsuliyyətli yanaşmağa sövq edirdi. Leytenant hərbi rütbəsi aldığım gün sevincimin həddi-hüdudu yox idi. Sevinirdim ki, xidmətimə ön xətdə yerləşən hərbi hissələrdən birində başlayacağam. İlk gündən bütün fəaliyyətimi düşmənin təxribatlarının qarşısını almaq istiqamətində qurdum.

Tabeliyimdə xidmət edənlər torpaqlarımızın işğaldan tezliklə azad edilməsini arzulayırdı. Mən onlara həmişə səbr etmələrini, üzərlərinə düşən vəzifələrin öhdəsindən layiqincə gəlmələrini, keçirilən dərsləri dərindən mənimsəmələrini tövsiyə edirdim. Deyirdim ki, biz hərbçiyik, yalnız komanda ilə hərəkət edə bilərik. Nəhayət ki, aprel döyüşləri bizi arzumuza çatdırdı. Ordu sıralarında xidmət edən hər bir Azərbaycan övladı düşmənin üzərinə şığıdı. 2016-cı ilin aprelində zenit-artilleriya bölmələrindən birində xidmət edirdim. Vəzifəmiz artilleriya divizionunu hava hücumlarından müdafiə etmək idi. Aprelin 1-i düşmənin hava hücumlarının qarşısını almaq üçün “Həyəcan” siqnalı ilə ehtiyat atəş mövqeyimizə çıxdıq. Düşmən şəxsi heyətin fəaliyyətinə və döyüş mövqelərimizə nəzarət etmək məqsədilə pilotsuz uçuş aparatlarından istifadə etmək istəyirdi. Düşmənin bu həmləsinə imkan vermədik. Aprel döyüşləri Azərbaycan xalqının qəhrəmanlıq salnaməsi, 24 illik həsrətin sonu idi. Mən də çox sevinirəm və qürurluyam ki, Böyük Qələbənin başlanğıcı olan döyüşlərdə iştirak etdim. Bu anlar Azərbaycan Ordusunda xidmət edən, ürəyi Vətənlə döyünən hər bir hərbçinin səbirsizliklə gözlədiyi anlar idi. Döyüşlər zamanı bizim tutduğumuz mövqeyi düşmən artilleriya atəşi ilə iki dəfə vurmağa cəhd göstərdi. Düşmənin növbəti addımını təsbit edərək, mövqeyimizi dəyişdik. Mövqeyimizi dəyişən kimi, ermənilər həmin yeri artilleriya qurğuları ilə vurdular. Ancaq qəbul edilən düzgün qərarın nəticəsində şəxsi heyətin heç biri xəsarət almadı və biz döyüşü daha möhkəm, əminliklə davam etdirdik. Bu gün Ermənistan ordusu Azərbaycan Ordusunun qarşısında tab gətirəcək vəziyyətdə deyil. İstər döyüş hazırlığı, istər silahlanma, istərsə də şəxsi heyətin mənəvi-psixoloji hazırlığı baxımından. Düşmən də döyüş meydanında bunun şahidi oldu. Ordumuzun gücünü görən erməni əsgəri çıxış yolunu yalnız qaçmaqda gördü. Qarşımıza qoyulan tapşırığın öhdəsindən layiqincə gəldiyimizdən qürur duyuruq. İndi şəxsi heyətimiz Böyük Qələbəyə aparacaq döyüş əmrini gözləyir. Bunun üçün aprel döyüşlərində əldə etdiyimiz təcrübəni daha da inkişaf etdiririk, hər an döyüşə hazırıq. Çox istəyirəm ki, oğlum da mənim kimi hərbçi olsun. İnanıram ki, gələcəkdə oğlum dünya dövlətləri tərəfindən tanınan sərhədlərimizin çərçivəsində xidmət edəcək.

**Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Mübariz Məmmədov:**

- 2016-cı il aprelin 1-dən 2-nə keçən gecə və gün ərzində bütün cəbhəboyu Azərbaycan mövqeləri və yaşayış məntəqələri Ermənistan silahlı qüvvələri tərəfindən güclü artilleriya atəşinə məruz qaldığından bizə “Həyacan” siqnalı ilə toplanmaq əmri gəldi. Biz də əmrə əsasən, cəmləşmə məntəqəsinə yollandıq. Azərbaycan Ordusu düşmənə layiqli cavab verərək, əks-həmlə nəticəsində torpaqlarımızın bir hissəsini işğaldan azad etdi. Ermənistan silahlı qüvvələri Azərbaycan Ordusunun gücünün qarşısında silah-sursatlarını, texnikalarını atıb qaçmağa məcbur oldu. Aprel döyüşləri ordumuzun şanlı qələbəsidir. Bununla hər kəs sevinir, qürur duyur. Ordu sıralarında xidmət edən hər bir hərbi qulluqçu Ali Baş Komandanımızın növbəti "İrəli" əmri ilə işğal altında olan torpaqlarımızı tamamilə azad etməyə qadirdir. O gün uzaqda deyil.






Həmin günlər yaşadıqlarımı sözlə ifadə edə bilmirəm. Ruh yüksəkliyi ilə torpaqlarımızın işğaldan azad olunması uğrunda hər bir kəs döyüşə inamla atıldı. Döyüşlər zamanı mənə yaxın olan, hər bir sirrimi paylaşdığım, hər zaman mənə arxa-dayaq duran üç nəfər dostumu itirdim. Nicat İsgəndərov, Səyyar Quliyev və Əlvan Hüseynov torpaqlarımızın bütövlüyü uğrunda son damla qanlarına qədər döyüşərək, şəhid oldular. Dostlarımı itirmək mənə nə qədər çətin olsa da, fəxr edirəm ki, Vətənimiz inamla qorunur. Onların haqqında danışmaq mənim üçün çox çətindir. İtirdiyim yaxın dostlarımı atam da tanıyırdı. Daim bir yerdə olduğumuzu bilirdi. Onların şəhid olduqlarını eşitdikdə doluxsunmuşdu. Mənim də onlarla birgə şəhid olduğumu düşünübmüş. Əməliyyatlar dayandırıldıqdan sonra evə getmək, etiraf edim ki, mənim üçün çətin oldu. Evə daxil olarkən, heç nə olmamış kimi gülümsəyərək, onlarla salamlaşdım. Valideynlərim sevinc göz yaşlarına hakim ola bilmirdi. Anam məni bağrına basıb ağlayanda dostum Nicat İsgəndərovu və onun anasına göndərdiyi mesajı xatırladım. "Heç nə deyə bilmərəm, ana, sadəcə onu deyə bilərəm ki, müharibədir, hər şey ola bilər. Gecəniz xeyrə qalsın, hamınızı öpürəm". Nicatın həm də aprel ayında toyu olacaqdı. Hər zaman çantasında Azərbaycan bayrağı olardı. Deyərdi ki, bu bayrağı mən Qarabağa sancacağam. Təəssüflər olsun ki, həmin bayraq onun tabutunun üzərinə çəkildi. Dostlarımın çantasını atasına vermək mənim üçün çox çətin idi. Aprel döyüşləri qələbəmizdir, zəfərimizdir. Belə qələbələrimiz daha çox olacaq. Düşmən bilməlidir ki, aprel döyüşləri ordumuzun həyata keçirdiyi kiçik bir əks-həmlə əməliyyatı idi. Onu da unutmamalıdırlar ki, Azərbaycan Ordusu Qarabağı da azad edə bilər və edəcək.

**Gizir Səxavət Alpaşayev:**

- Müddətli həqiqi hərbi xidmətimi başa vurandan sonra evə valideynlərimin yanına qayıtsam da, fikrim həmişə Vətənimizin, onun keşiyində ayıq-sayıq dayanan oğullarımızın yanında idi. Bütün peşələr önəmlidir, ancaq hərbçi peşəsi hamısından şərəflidir. Mən də Vətənimizi qoruyanların sıralarına daxil olmağı qərara aldım. Atam bu qərarımı biləndə mənimlə qürur duyduğunu bildirdi. Xidmətimi ön xətdə yerləşən bölmələrdən birində başlayacağımı öyrənəndə çox sevindim. Xidmətə gəldiyim ilk gündən düşmən tapdağı altında olan torpaqlarımızı azad edəcəyimiz günü səbirsizliklə gözləyirdim. Aprel döyüşlərindən artıq üç il keçir. Ancaq orada baş verən hadisələri bugünkü gün kimi xatırlayıram. Düşmənin öz bədxah niyyətlərini həyata keçirmək məqsədilə döyüş mövqelərimizə hücum etməsini eşidəndə bölmənin dayaq məntəqəsində idim. Ön xətdə yerləşən bölmələrimizi arxadan dəstək üçün “Həyəcan” siqnalı ilə şəxsi heyətimiz əvvəlcədən təyin olunan yerlərə yollandı. Hər birimizin sevinci gözlərindən oxunurdu. Döyüş meydanında bir-birimizə arxalanaraq, yalnız irəli getməyi, ermənilləri torpaqlarımızdan qovub çıxarmağı düşünürdük. Düşmən ilk zərbəni alandan sonra anladı ki, Azərbaycan əsgəri gəlir. Bunu görən erməni əsgərləri geri çəkilməyə, silahsursatlarını atıb, işğal olunan ərazilərimizdə qurduqları döyüş mövqelərini tərk edərək, qaçmağa başladılar. Biz də azad etdiyimiz torpaqları qorumaq üçün onlara aman vermədən öz mövqelərimizi möhkəmləndirdik. Düşmənin bütün fəaliyyətini nəzarət altında saxlamaq imkanı qazandıq. Onların canlı və zirehli texnikalarını irəliləməyə qoymurduq. Baxmayaraq ki, düşmən məğlubiyyətlə barışmaq istəmirdi. Bizi azad etdiyimiz yüksəkliklərdən çıxarmaq, öz işğalçı siyasətini davam etdirmək istəyirdi. Onu da qeyd edim ki, işğaldan azad etdiyimiz Lələtəpə və digər yüksəkliklər bizim üçün böyük strateji əhəmiyyət kəsb edir. Düşmən oradan yaşayış məntəqələrimizi atəşə tutur, dinc əhaliyə təhlükə yaradırdı. Lələtəpəni işğaldan azad etdikdən sonra düşmənə nəzarət etmək daha da asanlaşdı. Fəxr edirəm ki, bunun qarşısını aldıq, bizə verilən əmr və tapşırıqları düzgün yerinə yetirərək, işğalda olan torpaqlarımızın bir qismini azad etdik. Bir tankçı olaraq, tariximizin yazılan şanlı səhifələrindən birinin şahidi olduğumdan qürur duyuram.

**Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Həsən Orucov:**

- Əslən Füzuli rayonunun Veysəlli kəndindənəm. Qundaqda qırxgünlük uşaq olanda ata-baba yurdumuz işğal olundu, mən də anamın qucağında yurdumuzdan didərgin düşdüm. Böyüdükcə xalqımızın başına gətirilən vəhşilikləri uşaq vaxtlarından şahidlərin dilindən eşidirdim. Onların insanlığa sığmayan hərəkətlərini eşitdikcə düşmənə olan nifrətim artırdı. Orta məktəbi bitirdikdən sonra əsgəri xidmətə yollandım. Hər dəfə döyüş növbətçisi çıxanda qarşı tərəfdə doğma el-obamızı gördükcə düşmənə nifrətim daha da alovlanırdı. Xidmətim müddətində döyüş əmri olmadı. Xidmətimi başa vuraraq, ailəmin yanına qayıtdım. Axşam sükut çökəndə, ətraf sakitliyə qərq olanda sanki şəhidlərimizin ruhu məni Vətənimizin keşiyində durmağa səsləyirdi. Vətənimizi mənfur düşməndən azad edənlərin sıralarında olmaq üçün yenidən ordu sıralarına qatıldım. Hər gün hərbi biliklərimi, vərdişlərimi daha da təkmilləşdirirdim. 2016-cı ilin aprelində düşmən ilk




olaraq Lələtəpə, daha sonra Horadiz istiqamətindən təxribatlar törətmək istədi. Bunun qarşısını almaq üçün “Həyəcan” siqnalı ilə qalxaraq, əvvəlcədən təyin olunan mövqelərə yollandıq. Həmin an yalnız azğınlaşmış düşməni geri oturtmağı düşünürdük. "İrəli" əmri veriləndə çox sevincliydim. Fəxr edirəm ki, bu döyüşlərin iştirakçısı oldum. Biz düşmənin canlı qüvvəsini, texnikasını məhv etdik. İnanıram ki, düşmən indi də qorxu içində yaşayır. Biz isə Böyük Qələbəyə gedən yola uğurla başladıq. Düşmən Azərbaycan əsgərinin qarşısında tab gətirə bilməz. Komandirlərimizin bizlərlə bərabər ön cərgədə düşmənin üzərinə getməsi bizi daha ruhlandırırdı. Qürurlanırdım ki, mənimlə yanaşı, komandirimiz polkovnik Vilayət Quliyev də döyüşürdü. Biz xidmətimizi davam etdirirk və Ali Baş Komandanımızın döyüş əmrini gözləyirik.

**Baş leytenant**
**Ruslan HƏSƏNZADƏ,**
**baş leytenant**
**Orxan HÜSEYNLİ,**
**"Azərbaycan Ordusu"**

# Natiq Əliyev Avropa Universal Döyüş Federasiyasının prezidenti seçilib

*Bakıda Avropa Universal Döyüş Federasiyasının Konqresi keçirilib. AZƏRTAC xəbər verir ki, konqresdə Milli Olimpiya Komitəsinin vitse-prezidenti Xəzər İsayev, Gənclər və İdman Nazirliyinin idman şöbəsinin müdiri Fərid Mansurov, Müdafiə Nazirliyi Tibb Baş İdarəsinin rəisi general-mayor Natiq Əliyev, Beynəlxalq Universal Döyüş Federasiyasının prezidenti Vasili Otkidaç, Asiya Universal Döyüş Federasiyasının prezidenti Zokirbekov Yaşnarbek, Azərbaycan Universal Döyüş Federasiyasının (AUDF) prezidenti, Beynəlxalq Universal Döyüş Federasiyasının birinci vitse-prezidenti Azər Həsənov, Olimpiya çempionları və idman ictimaiyyətinin nümayəndələri iştirak ediblər.*





Tədbiri giriş sözü ilə açan AUDF-in prezidenti A.Həsənov Konqresin Azərbaycanda təşkil olunmasını əlamətdar hal kimi dəyərləndirib. Ölkəmizdə idmana göstərilən dövlət qayğısından danışan federasiya prezidenti respublikamızda universal döyüşün inkişafından və bu sahədə əldə olunan uğurlardan söz açıb.

Qeyd edib ki, Konqresin respublikamıza həvalə olunması Azərbaycanın dünyada idman ölkəsi kimi tanınmasının nəticəsidir.

Latviya, Litva, Estoniya, Rusiya, Bolqarıstan, Türkiyə, Ukrayna, Rumıniya və digər ölkələrdən olan İcraiyyə Komitəsi üzvlərinin iştirakı ilə keçirilən Konqresin seçki mərhələsində Müdafiə Nazirliyi Tibb Baş İdarəsinin rəisi Natiq Əliyev yekdil səsverməyə əsasən Avropa Universal Döyüş Federasiyasının prezidenti seçilib. Qurumun vitse-prezidenti vəzifəsinə İvan Tanyev və Nevzat Varol təyin olunub. Aydın Abdullazadə isə federasiyanın baş katibi seçilib.

Avropa Universal Döyüş Federasiyasının yeni prezidenti N.Əliyev çıxış edərək ona göstərilən etimadı yüksək qiymətləndirib.

"Bu etimad, əlbəttə ki, dövlətimizə, Azərbaycan Prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyevə göstərilən etimaddır. 1997-ci ildə İlham Əliyev Milli Olimpiya Komitəsinə prezident seçildikdən sonra ölkəmizdə idman sahəsi daha sürətlə inkişaf edib. Hazırda Azərbaycan dünya idman ailəsinin ən layiqli üzvlərindən biridir. Respublikamız dünyanın idman mərkəzlərindən birinə çevrilib. İdmançılarımız dünyanın ən mötəbər yarışlarında ən yüksək nailiyyətlər qazanırlar. Sevindirici haldır ki, son dövrlərdə Azərbaycan nümayəndələri bu və ya digər beynəlxalq qurumlarda layiqincə təmsil olunurlar. Bu günlərdə Milli Olimpiya Komitəsinin vitse-prezidenti Xəzər İsayev Beynəlxalq Ədalətli Oyunlar Komitəsinin Regional Ədalətli Oyunlar İnkişaf Mərkəzinin prezidenti və qurumun icraiyyə komitəsinin üzvü seçilmişdir. O cümlədən, həmyerlimiz Fərid Qayıbov Avropa Gimnastika İttifaqının prezidenti vəzifəsində çalışır. Bu uğurlar onu göstərir ki, beynəlxalq aləmdə Azərbaycana yüksək səviyyəli etimad göstərilir", - N.Əliyev əlavə edib.

AUDF-in fəaliyyətindən və nailiyyətlərdən danışan N.Əliyev əsas məqsədin Beynəlxalq Hərbi İdman Şurasına daxil olmaq və Azərbaycanı orada layiqincə təmsil etmək olduğunu vurğulayıb.

Milli Olimpiya Komitəsinin vitse-prezidenti X.İsayev qonaqları salamlayıb və N.Əliyevi prezident seçilməsi münasibəti ilə təbrik edib. O, Azərbaycanda idmanın inkişafından danışıb və respublikamızda universal döyüşün təbliğinin əhəmiyyətini yüksək qiymətləndirib.

X.İsayev deyib: "Azərbaycan Prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyevin idman sahəsində apardığı uğurlu siyasətin nəticəsidir ki, respublikamızda idman və Olimpiya hərəkatı inkişaf edir. Ölkəmizdə Olimpiya idman növləri ilə yanaşı, qeyri-Olimpiya idman növlərinə də dövlət tərəfindən diqqət və qayğı göstərilir. Bu qayğının nəticəsidir ki, Azərbaycan dünyada ən nüfuzlu idman ölkələrindən birinə çevrilib. Güc strukturlarında əsas idman növü kimi tətbiq olunan universal döyüşün təbliği və inkişafı yeniyetmə və gənclərin vətənpərvər ruhda böyümələri baxımından çox əhəmiyyətlidir. İnanıram ki, Natiq Əliyev Avropa Universal Döyüş Federasiyasının rəhbəri kimi, həm qitə, həm də Azərbaycan idmanının inkişafına öz töhfəsini verəcək".

Konqresdə, həmçinin gündəlikdə duran bir sıra vacib məsələlər müzakirə olunub, universal döyüşün Avropada inkişafı ilə bağlı fikir mübadiləsi aparılıb.

# "Torpaqlarımızı azad edəcəyik"

Müharibə şəraitində yaşayan bir ölkə kimi Azərbaycanın güclü orduya, təkmilləşmiş hərbi sistemə, inkişaf etmiş müdafiə sənayesinə malik olması ölkənin hərbi təhlükəsizliyi baxımından böyük önəm kəsb edir. Hərbi təhlükəsizliyin möhkəmləndirilməsi ordunun maddi-texniki və mənəvi-psixoloji hazırlıq səviyyəsinin yüksəldilməsindən də asılıdır. Bu mənada tarixi torpaqlarımızın işğalçılardan təmizlənməsində hərbçilərimizin, o cümlədən artilleriya qüvvələrinin üzərinə böyük məsuliyyət düşür. Onlar döyüş zamanı digər qoşun növlərinin səmərəli hücum strategiyasını təmin etmək, dəqiq koordinatlar əsasında düşmənin istehkam qurğularını, artilleriya batareyalarını, sığınacaqlarını, eləcə də digər strateji hərbi obyekt və məntəqələrini, canlı qüvvəsini məhv etmək baxımından əvəzedilməz iş görürlər. Döyüşlərin uğurla həyata keçirilməsi üçün ərazidə düşmənin artilleriyasının, tanklarının, tank əleyhinə və zenit silahlarının, pulemyotlarının atəş mövqeləri, idarəetmə və müşahidə məntəqələrinin yerləşməsi haqqında məlumatlara malik olmaq vacibdir. Buna görə də düşmənin yerləşmə rayonunun və atəş mövqelərinin detallı şəkildə açılması ərazi kəşfiyyatının əsas vəzifələrindən biri hesab olunur.

"N" hərbi hissənin artilleriya bölmələrindən birində fiziki cəhətdən hazırlıqlı olan Azərbaycan hərbçiləri müasir texnika və silahlardan normativə uyğun istifadə edə bilir, bu sahədə təcrübələrini durmadan təkmilləşdirirlər.

Baş leytenant Allahverdi Əsgərov qeyd etdi ki, Azərbaycan Ordusunun artilleriya bölmələri bu gün tarixi təməl üzərində yeni uğurlu nəticələr əldə edir, üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirirlər. "Azərbaycan Ordusunda döyüş tapşırıqlarının düzgün və vaxtında yerinə yetirilməsi hər bir əsgər və zabitdən yüksək nəzəri hərbi biliklə yanaşı, fiziki, mənəvi-psixoloji hazırlıq da tələb edir. Odur ki, döyüşdə uğur qazanmaq üçün müasir silahlara malik olmaq hələ tam yetərli deyil. Bu silahlardan istifadə qaydalarını peşəkarcasına öyrənmək, fiziki cəhətdən hazırlıqlı olmaq, qazanılan nəzəri-təcrübi biliklərdən düşmənin canlı qüvvəsini və hərbi texnikasını məhv etmək üçün maksimum səmərəli istifadə etmək lazımdır".

Leytenant Coşqun Əfəndiyev bildirdi ki, şəxsi heyət fərdi hazırlıq dövründə gündəlik olaraq taktiki təlimləri davam etdirir, bu sahədə nəzəri-təcrübi hazırlığını artırır: "Tələblərə görə artilleriya qüvvələri cəbhə xəttindən bir neçə kilometr arxada yerləşdirilir. Bu, hərbi əməliyyatların artilleriya



dəstəyi ilə uğurla başa çatdırılması üçündür. Peşəkar zabitlər əsgərlərə artilleriyadan necə istifadə etməyin sirlərini öyrədir, ərazinin kəşfiyyatının aparılması qaydalarını izah edir, onlara lazımi təlimatlar, əmrlər verirlər".

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Elvin Allahmanov ön xətdə xidmət etməsindən qürur hissi keçirdiyini vurğulamaqla yanaşı, artilleriyaçıların döyüşə tam hazır olduqlarını bildirdi: "Bizim əsas vəzifəmiz hərbi əməliyyatların aparılması zamanı piyada qüvvələrini atəş dəstəyi ilə təmin etməkdir. Piyada qüvvələrinə yardım etmək üçün onların bizə verdiyi hədəfləri sıradan çıxarmalıyıq. Artilleriya silahlarından necə davranmağın sirlərini yaxından öyrənir, özümüzü ən ağır artilleriya döyüşlərinə hazırlamağa çalışırıq. Komandirlərimiz mütəmadi olaraq məşğələlər keçirir, dərslər bilavasitə atəş mövqeyində aparılır. Məlumdur ki, artilleriya silahları genişmiqyaslı döyüş əməliyyatlarının taleyini müəyyən edir".

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Mehman Ağayarov dedi ki, artilleriyaçı olmaq böyük məsuliyyət tələb edir: "Artilleriya döyüşün gedişinə əsas təsir göstərən hərbi vasitədir. Müxtəlif artilleriya qurğularının taktiki-texniki xüsusiyyətlərinə yiyələnmişəm. Döyüşlər başlayanda, sözsüz ki, əsas yük bizim üzərimizə düşəcək. Sərrast atəşlərimizlə düşməni məhv edəcəyimizə əminik".

"Hər birimiz yaxşı anlayırıq ki, Vətənimizin bütövlüyünün qorunması naminə bizlər səngərdə şərəf və ləyaqətlə dayanmalıyıq. Əsgərlərimizin bir arzusu var, torpaqlarımızın düşməndən azad edilməsi bizim hərbi xidmət dövrümüzə təsadüf etsin. Şəxsən mənim üçün qalib əsgər kimi ailəmizin yanına dönmək ən böyük şərəf olar", - deyə əsgər Cahangir Qaraşov söhbətə qoşuldu.

"Bizim üçün ən böyük şərəf odur ki, bu gün Azərbaycan Ordusunun hərbi qulluqçularıyıq", - deyə zabit Zaur Mustafayev söhbəti tamamladı. - Bu gün hər birimiz yaxşı bilirik ki, güclü bir dövlətin vətəndaşıyıq, qüdrətli bir ordunun hərbçiləriyik. Rəhbərliyimizin diqqət və qayğısını, hər zaman üzərimizdə hiss edirik. Hərbçilər arasında münasibətlər səmimilik və qarşılıqlı inam əsasında qurulub. Yeni gələn əsgərlərimiz də tez bir zamanda bu mühitə alışır, zabitlərimiz tərəfindən öyrətdiklərini yüksək səviyyədə mənimsəyir və günbəgün döyüş potensialını artırırlar. Arzumuz, istəyimiz, məqsədimiz isə aydındı...

**Kapitan**
**Məhəmməd ƏLİYEV,**
**"Azərbaycan Ordusu",**
**foto**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

AZƏRBAYCAN ORDUSU

# ƏÜO-da növbəti kursların başa çatması ilə əlaqədar buraxılış mərasimi keçirilib



*Əlahiddə Ümumqoşun Orduda növbəti gizir, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu və qadın hərbi qulluqçu kurslarının başa çatması ilə əlaqədar buraxılış mərasimi keçirilib.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Əlahiddə Ümumqoşun Ordunun komandanı general-leytenant Kərəm Mustafayevin təbriki şəxsi heyətə oxunduqdan sonra müvafiq kurslar üzrə yüksək nəticə göstərən məzunlara sertifikat və qiymətli hədiyyələr, digər məzunlara isə sertifikatlar təqdim edilib.



Kurs birinciləri tərəfindən xatirə lövhələrinə buraxılış emblemləri vurulub.

Yeni xidmət yerlərinə yollanacaq məzunlar tribuna önündən təntənəli keçid ediblər.

## Global Fire Power:
## Azərbaycan Ordusu hərbi potensialına görə Cənubi Qafqazda birinci, dünyada 52-cidir

*"Global Fire Power" mərkəzi 55 göstərici əsasında dünyanın ən güclü ordularının reytinqini açıqlayıb.*

AZƏRTAC mərkəzin saytına istinadla xəbər verir ki, ümumilikdə 137 ölkənin yer aldığı siyahıda Azərbaycan Ordusu hərbi qüdrətinə görə 52-ci sıradadır. Azərbaycan bu göstərici üzrə region ölkələrini qabaqlayır. Belə ki, reytinq siyahısında Gürcüstan 85-ci, Ermənistan isə 96-cı yerdədir.

Reytinq siyahısı hazırlanarkən ölkələrin ordularının şəxsi heyətinin, ehtiyatda olan hərbçilərin, orduya yararlı insanların sayı əsas götürülüb. Bununla yanaşı, orduların arsenalındakı silahların müxtəlifliyi, nüvə potensialı, coğrafi mövqe, logistik imkanlar, təbii ehtiyatlar və ölkənin infrastrukturu nəzərə alınıb.

Siyahıda ilk onluqda ABŞ, Rusiya, Çin, Hindistan, Fransa, Yaponiya, Koreya Respublikası, Böyük Britaniya, Türkiyə və Almaniya orduları yer alıblar.

# “Ən yaxşı snayper” adı uğrunda yarış keçirilib

Müdafiə nazirinin təsdiq etdiyi 2019-cu il üçün döyüş hazırlığı planına əsasən, Azərbaycan Ordusunun hərbi hissələri arasında "Ən yaxşı snayper" adı uğrunda yarış keçirilib.



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, sərrast atıcılıq qabiliyyətinə malik hərbi qulluqçuların müəyyən edilməsi məqsədilə təşkil olunan yarış Müdafiə Nazirliyinin xüsusi təchiz edilmiş təlim meydançasında keçirilib. Hərbi qulluqçuların təchizatı yoxlanıldıqdan sonra onlar əvvəlcədən hazırlanmış atəş mövqelərini tutub və normativləri icra ediblər.

Snayperlər hədəflərə fərdi və qrup şəklində atışlar edib, maneələrin dəf edilməsi üzrə tapşırıqları müvəffəqiyyətlə yerinə yetiriblər.

# Aprel döyüşləri Azərbaycan Ordusunun qüdrətini, Ermənistan ordusunun isə acizliyini və zəifliyini göstərdi

Azərbaycan Ordusu 2016-cı il aprelin 2-5-də Ermənistan silahlı qüvvələrinin növbəti hərbi avantürasının qarşısını əks-həmlə ilə aldı və düşmənə sarsıdıcı zərbələr endirdi. Dördgünlük hərbi əməliyyatlarda qoşunlarımız mövqe üstünlüyünü təmin etdi. Prezident İlham Əliyev dəfələrlə qeyd edib ki, Azərbaycan Ordusu dünyanın ən güclü orduları sırasınadır. Güclənən Azərbaycan, qüdrətli Azərbaycan Ordusu, qəhrəman Azərbaycan əsgəri düşmən üçün daim qorxu mənbəyidir və bu qorxunu aradan qaldırmaq üçün, sadəcə olaraq, Ermənistan beynəlxalq hüquq normalarına əməl etməlidir və işğal etdiyi torpaqlardan qeyd-şərtsiz çıxmalıdır.

Bu fikirləri AZƏRTAC-a müsahibəsində Milli Məclisin deputatı Elman Nəsirov söyləyib.

Deputat qeyd edib ki, Ermənistan tərəfi bu fikirlərə uzun müddət ərzində bir təbliğat kampaniyasının tərkib hissəsi kimi yanaşırdı. Elə bu məntiqlə də aprelin 1-dən 2-nə keçən gecə növbəti hərbi avantüraya əl atdı və layiqli cavabını aldı. Ermənistanın Azərbaycanla dövlət sərhədində və qoşunların təmas xəttində törətdiyi növbəti hərbi insident Azərbaycan Ordusunun qüdrətini və sarsılmaz döyüş ruhunu, erməni ordusunun isə acizliyini və zəifliyini nümayiş etdirdi. Ən müasir hərbi texnika və silahlarla təchiz edilmiş, yüksək vətənpərvərlik ruhuna malik ordumuzun 4 gün ərzində düşməni əks-hücumla darmadağın etməsi Prezident İlham Əliyevin yuxarıda qeyd olunan fikirlərinin tam həqiqəti əks etdirdiyini bir daha təsdiqlədi.

Ermənistanın aprel hərbi təxribatı və ona Azərbaycan Ordusunun verdiyi layiqli cavab bir sıra nəticələrə gəlməyə əsas verir. Çoxsaylı nəticələr sırasında üçü üzərində xüsusi olaraq dayanmaq olar.

Birinci nəticə. Ermənistan ordusunun və qondarma "Dağlıq Qarabağ respublikası silahlı qüvvələri"nin kifayət qədər güclü olması, ən müasir silahlarla təchizatı və əsgər-zabit heyətinin yüksək döyüş ruhuna malik olması ilə bağlı erməni təbliğat maşınının illərlə formalaşdırdığı mif sabun köpüyü kimi dağıldı. Ermənistan ordusunun keçən əsrin 80-ci illərinin silahlarından istifadə etdiyi həqiqəti bəlli oldu. Həmin dövrdə Ermənistanın baş naziri olmuş Ovik Obramyanın İrəvana səfər etmiş Rusiyanın Baş naziri Dmitri Medvedevə 200 milyon dollar kredit üzrə silah-sursatın verilməsinin hələ də Moskva tərəfindən yubadıldığını xatırlatması və bu məsələdə kömək göstərilməsini az qala yalvararaq xahiş etməsi yuxarıda söylənilən fikirlərin düzgünlüyünü təsdiqləyir. Bundan başqa, Ermənistanın o zamankı prezidenti Serj Sarkisyan Almaniyada səfərdə olarkən iki hadisənin onu üzdüyünü dilə gətirməkdən çəkinməyib. Birincisi, Azərbaycan Ordusu ən müasir silahlarla təchiz olunub. İkincisi, müttəfiqləri olan Rusiya Azərbaycana müasir silah-sursat satır. Əli Xocalıda dinc, günahsız soydaşlarımızın qanına bulaşmış Serj Sarkisyanı heç vaxt bu qədər bədbin və inamsız görməmişdik.

İkinci nəticə. Beynəlxalq birliyin subyektlərinin mütləq əksəriyyəti, o cümlədən böyük dövlətlər və beynəlxalq təşkilatlar, əsasən, Azərbaycanın haqq işini müdafiə etdilər. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, bütün həmsədr ölkələr - ABŞ, Rusiya, Fransa Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir. Dünyada Ermənistandan başqa elə bir ölkə yoxdur ki, bizim ərazi bütövlüyümüzü dəstəkləməsin. Qanlı toqquşmalardan sonra beynəlxalq ictimaiyyət bu məsələ ilə bağlı narahatlığını ifadə etdi. Həmsədr ölkələrin rəhbərliyi sülh danışıqlarına sadiqlik göstərilməsi, məsələnin sülh yolu ilə həllinə dair bəyanatlar verdilər. Hətta iş o yerə gəlib çatdı ki, Ermənistanın Xarici İşlər Nazirliyi beynəlxalq qınaq obyektinə çevriləcəyi perspektivindən ehtiyatlanaraq bu istiqamətdə yaranmış vəziyyətin geniş təhlilə ehtiyacı olduğunu vurğuladı və məlum istiqamətdə fəaliyyətin yenidən qurulmasının vacibliyini qeyd etdi. Ermənistanın hər zaman istinad edərək Azərbaycanı hədələdiyi Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının ayrı-ayrı üzvlərinin davranışı rəsmi İrəvanın "yuxusuna haram qatdı". Xüsusilə Qazaxıstan və Belarus dövlətlərinin Azərbaycanın mövqeyini birmənalı olaraq müdafiə etməsini böyük məmnunluq hissi ilə qeyd edirik. Türkiyə hər zaman olduğu kimi, bu dəfə də Azərbaycanın yanında oldu. Dövlətlərimizin qardaş, dost, strateji müttəfiq olması həqiqəti növbəti dəfə tarixin sınağından çıxdı. Ermənistan mətbuatı və ziyalıları isə ölkələrinin təkləndiyinin, müttəfiqsiz qaldığının acı etirafını etdilər.

Üçüncü nəticə. 1994-cü ildən bəri davam edən nisbi atəşkəs dövründə ilk dəfə olaraq Azərbaycan Ordusunun düşmənə sarsıdıcı zərbə endirə bilməsi bir sıra amillərlə bağlıdır. Xüsusi olaraq qeyd edək ki, ulu öndər Heydər Əliyevin ordu quruculuğuna prioritet sahə kimi yanaşması və bu istiqamətdə göstərdiyi misilsiz fəaliyyət Prezident İlham Əliyev tərəfindən yüksək səviyyədə davam etdirilib. Son 15 il ərzində Azərbaycanın hərbi arsenalı ən müasir silahlarla təmin edilib. Ölkə büdcəsində hərbi xərclər birinci mövqedədir. Ordumuzun hərbi vətənpərvərlik ruhu özünün pik nöqtəsindədir. Bütün qoşun növləri arasında nadir əlaqələndirmə mövcuddur. Ən başlıcası isə, hakimiyyət və xalq arasında monolit birlik var. Xalq Prezidentini sevir, Prezident isə xalqın mənafeyini hər şeydən üstün tutur. Məhz bu reallıq ölkəmizdə siyasi sabitliyin formalaşmasını təmin edən başlıca amilə çevrilib. Bütün bunlar Ermənistanda yoxdur. Məhz aprel döyüşlərinin bilavasitə nəticəsi olaraq Ermənistan dövlətinin onsuz da zəif olan dayaqları sarsılmış oldu. Ermənistan inqilab yaşadı, Sarkisyan rejimi tarixin qaranlıq küncünə atıldı. Ermənistanın müdafiə naziri və əksər generalları vəzifələrindən qovuldular. Ermənistanda yeni müxalifət düşərgəsi - "Əsgər anaları hərəkatı" formalaşdı. Ermənistan ordusunun böyük aprel itkiləri fonunda bu hərəkatın sıraları ədədi deyil, həndəsi silsilə ilə artmaqdadır.

Bu reallıqlar Ermənistanın yeni rəhbərliyi üçün ibrət dərsi olmalıdır. Əks halda, Ermənistanı hərbi cəbhədə labüd biabırçı məğlubiyyət gözləyir. Ermənistanın siyasi-hərbi rəhbərliyinin papağını qarşısına qoyub düşünməyinin vaxtı çoxdan çatıb. Hər keçən zaman Ermənistanın əleyhinə işləməkdədir.

# Azərbaycanlıların soyqırımının 101 illiyi ilə əlaqədar Azərbaycan Ordusunda silsilə tədbirlər keçirilib

*1918-ci il azərbaycanlıların soyqırımının 101 illiyi ilə əlaqədar Azərbaycan Ordusunda silsilə tədbirlər keçirilib. Əlahiddə Ümumqoşun Ordu, müxtəlif qoşun növləri, birlik, birləşmə və xüsusi təyinatlı təhsil müəssisələrində yerli icra hakimiyyəti orqanları və ictimai qurumların nümayəndələri ilə birgə anım tədbirləri təşkil olunub. Soyqırımı ilə bağlı şəxsi heyətlə ictimai-siyasi hazırlıq dərsləri, konfranslar, toplantı və xüsusi məşğələlər keçirilib, kitab, foto və rəsm sərgiləri təşkil olunub, sənədli və bədii filmlər nümayiş etdirilib. Tədbirlərdə ümummilli lider Heydər Əliyevin, Vətənimizin müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların, 31 mart soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət himni səsləndirilib.*





Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində 31 Mart Azərbaycanlıların Soyqırımı Günü münasibətilə tədbir keçirilib. Kursantlar qruplar şəklində Respublika Hərbi Prokurorluğunda yaradılmış Soyqırım Muzeyini, Xətai rayonunda ucaldılmış Xocalı Soyqırımı abidəsini ziyarət ediblər. Kütləvi-tərbiyəvi iş saatlarında bölmələrdə keçirilən məşğələlərdə ermənilərin tarixən xalqımıza qarşı apardığı soyqırımı siyasəti ilə bağlı şəxsi heyətə geniş məlumatlar verilib.

Ali Hərbi Məktəbin klubunda şəxsi heyətin iştirakı ilə keçirilən tədbirdə tarix elmləri doktoru, ehtiyatda olan polkovnik Mehman Süleymanov çıxışında erməni vandalizminin iç üzünü açmağa çalışmışdır.

Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin və Cəmşid Naxçıvanski adına Hərbi Liseyin təhsildə, xidmətdə fərqlənən bir qrup kursantlarının Quba şəhərində yerləşən Soyqırımı Memorial Kompleksini ziyarəti isə gələcəyin zabitlərini tariximizi öyrənməyə, ermənilərin vəhşilikləri barədə daha geniş məlumatlar almağa, onların düşmənə nifrət hissini artırmağa, işğal olunmuş torpaqlarımızın azad olunması və Azərbaycan dövlətinin təhlükəsizliyinin etibarlı qorunması üçün onları öz ixtisaslarına uyğun daha mükəmməl biliklərə yiyələnməyə, ərazi bütövlüyümüzün bərpası naminə hər an döyüşə hazır olmağa sövq edir.

Quba şəhərində yerləşən Soyqırımı Memorial Kompleksini ziyarət edən kursantlar bir daha əmin oldular ki, ermənilər Azərbaycanda yaşayan bütün xalqlara qarşı, o cümlədən ləzgilərə, yəhudilərə, tatlara və bütün müsəlman əhaliyə qarşı bu cür qəddarlıqlar və vəhşiliklər törədib, uşağa, qadına, qocaya baxmayaraq hamısını qətlə yetiriblər.

* * *

Respublikamızın bütün idarə və təşkilatlarında olduğu kimi, "N" hərbi hissəsində də 31 Mart Azərbaycanlıların Soyqırımı Günü ilə əlaqədar tədbir keçirildi.

Tədbirdə hərbi hissənin şəxsi heyəti, ictimaiyyət nümayəndələri və kütləvi informasiya vasitələrinin əməkdaşları iştirak edirdilər.

Polkovnik Ədalət Hacıyev tədbiri açaraq bildirdi ki, erməni daşnaklarının bolşeviklərlə birgə həyata keçirdiyi 31 mart soyqırımı, Azərbaycan xalqına qarşı dəfələrlə törədilmiş və uzun illər boyu öz siyasi-hüquqi qiymətini almamış faciəli səhifələrdən biridir. 1918-ci il 30 mart və 3 aprel tarixləri arasında Bakı şəhərində və Bakı quberniyasının müxtəlif bölgələrində, eləcə də Şamaxı, Quba, Xaçmaz, Lənkəran, Hacıqabul, Salyan, Zəngəzur, Qarabağ, Naxçıvan və digər ərazilərdə Bakı Soveti və daşnak erməni silahlı dəstələri azərbaycanlılara qarşı soyqırımı törədiblər. Rəsmi mənbələrə əsasən, soyqırımı nəticəsində 12 minə yaxın azərbaycanlı qətlə yetirilib, on minlərlə insan itkin düşüb.

Tarixi şərait səbəbindən ötən iki əsr ərzində baş vermiş hadisələrə, xalqımızın faciələrinə obyektiv qiymət vermək mümkün olmayıb. Yalnız müstəqillik əldə edildikdən sonra ermənilərin Azərbaycan xalqına qarşı həyata keçirdikləri soyqırımı cinayətlərinə əsl hüquqi-siyasi qiymət verildi. 1998-ci il martın 26-da ümummilli lider Heydər Əliyevin imzaladığı "Azərbaycanlıların soyqırımı haqqında" fərman erməni millətçilərinin cinayətkar əməllərinə verilən dolğun və hərtərəfli siyasi qiymət oldu.

Xalqımızın sovet dövründə bu gerçəkliklərdən məlumatsız olduğunu, saxta ideoloji ehkamlar və yalan tarix nəticəsində yaddaşımızın uzun illər tamamilə başqa istiqamətdə kökləndiyini bildirən polkovnik-leytenant Ramin Əliyev hətta dəhşətli soyqırımın qurbanı olan minlərlə soydaşımızın uyuduğu qəbiristanlığın üstündə park salındığını diqqətə çatdırdı.

- Bu gün Ulu Öndərin siyasi kursunu uğurla davam etdirən Ali Baş Komandan cənab İlham Əliyevin həyata keçirdiyi məqsədyönlü diplomatiya təcavüzkar Ermənistanı çıxılmaz vəziyyətdə qoymuşdur. Dövlətimizin başçısı xalqımızın haqq səsini dünya ictimaiyyətinə çatdırmaq üçün bütün mötəbər tribunalardan istifadə edir, görüşlərində, xarici ölkələrə səfərlərində, çıxışlarında Azərbaycan xalqına qarşı soyqırımı həyata keçirən ermənilər haqqında məlumat verir, bu cinayəti törədənləri və ona göz yumanları kəskin tənqid atəşinə tutur, dünya ictimaiyyətini erməni riyakarlığına son qoymağa çağırır. Haqq-ədalətin öz yerini tutacağına, tezliklə əzəli torpaqlarımızı işğaldan azad edəcəyimizə əminik.



Əməkdar artist Aybəniz Haşımova Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüskarı olduğu "Xocalıya ədalət" beynəlxalq kampaniyası çərçivəsində 20-26 fevral tarixlərində Türkiyənin İstanbul şəhərində keçirilən "Xocalıya ədalət" həftəsində rəhbərlik etdiyi "Sənət Akademiyası"nın tələbələri ilə iştirakından söz açdı. XX əsrin sonunda Xocalıda baş verən soyqırımın yalnız azərbaycanlılara deyil, insanlığa qarşı törədilən cinayət olduğunu bildirdi. Əməkdar artist xalqımızın başına gətirilən bu soyqırımları unutmamağa və dünya ictimaiyyətinə çatdırılması üçün özünü azərbaycanlı sayan hər bir vətəndaşı əlindən gələni etməyə səslədi.

Leytenant İsgəndər Zamanov, əsgər Röyal İsayev, Röyal Abbasov və başqaları da çıxış edərək vurğuladılar ki, son iki əsrdə ermənilərin Azərbaycana qarşı düşünülmüş şəkildə həyata keçirdiyi genişmiqyaslı soyqırımı nəticəsində yüzlərlə yaşayış məntəqəsi yerlə-yeksan edilib, yüz minlərlə azərbaycanlı qəddarcasına öldürülüb, bir milyondan çox insan evindən, öz el-obasından didərgin düşüb. Çıxışçılar işğal altındakı torpaqlarımızın düşmən tapdağından azad edilməsi üçün hər an Ali Baş Komandan İlham Əliyevin döyüş əmrinə hazır olduqlarını bildirdilər.

Tədbirin bədii hissəsində səhnəmizin sevilən müğənnisi Aybəniz Haşımova və tələbələri Müzəffər Fərzəliyev, Milana Nəbiyeva, Xalid Əliyev, Leyli Səfərova, Həsən Əliyev, Hikmət Qasımov, Miryasin Əliyev, Ramal Məmiyev və Seymur Məlikzadə soyqırımı qurbanlarına həsr olunmuş musiqi nömrələrindən ibarət kompozisiya təqdim etdilər.

* * *

Tarix boyu güclü havadarlarına arxalanan ermənilər zaman-zaman xalqımıza qarşı soyqırımı və qırğınlar törətmişlər.

Əsrlərdir xalqımız erməni vəhşiliyindən, erməni vandalizmindən əziyyət çəkir. Bu günə qədər minlərlə insan erməni soyqırımının qurbanı olub. Xalqımıza qarşı törədilən soyqırımı faciələrinə siyasi qiymət vermək məqsədilə ümummilli liderimiz Heydər Əliyev 26 mart 1998-ci il tarixdə "Azərbaycanlıların soyqırımı haqqında" fərman imzaladı. Həmin fərmanla 31 Mart Azərbaycanlıların Soyqırımı Günü kimi tarixə həkk olundu. Böyük əhəmiyyəti olan bu sənəddə Azərbaycan XIX əsrdə zorakılıqla parçalandıqdan sonra azərbaycanlılara qarşı törədilmiş, bəşər tarixində görünməmiş vəhşiliklərlə həyata keçirilmiş kütləvi qırğınların - soyqırımların tariximizdə ilk dəfə olaraq rəsmən adı çəkilir.

Azərbaycanlıların Soyqırımı Günü ilə bağlı olaraq keçirilən silsilə tədbirlər çərçivəsində Cəmşid Naxçıvanski adına Hərbi Liseyin kursantları mayor Natiq Rəhimovun və dərnək rəhbəri Gülsəda Amanın müşayiəti ilə Azərbaycan Respublikasının Hərbi Prokurorluğunun nəzdində fəaliyyət göstərən Memorial Soyqırımı Muzeyini ziyarət etdilər. Kursantları qarşılayan bələdçi əvvəlcə muzeyin yaranma tarixindən, məqsədindən və fəaliyyətindən qısaca söz açaraq dedi ki, Memorial Soyqırımı Muzeyi 24 fevral 2014-cü ildə yaradılıb. Muzeyin yaradılmasında əsas məqsəd XX əsrdə ermənilərin azərbaycanlılara qarşı törətdikləri qanlı cinayətlərin həqiqətlərini əyani şəkildə gələcək nəsillərə çatdırmaq, həmçinin dünya ictimaiyyəti arasında təbliğini genişləndirmək və ermənilərin qanlı əməllərini ifşa etməkdir. Muzeyin fondunda yüzlərlə istintaq materialları, foto, arxiv materialları, şəxsi əşyalar qorunub saxlanılır.

Muzey barədə qısa məlumat verdikdən sonra bələdçi eksponatlarla kursantları tanış etdi. Kursantlar burada nümayiş etdirilən rəsm əsərlərinə, fotolara, istintaq və arxiv materiallarına diqqətlə baxdılar. Mövzu ilə bağlı bələdçiyə müxtəlif suallar ünvanladılar. Eksponatlarla yaxından tanış olduqdan sonra kursantlar üçün Azərbaycan xalqına qarşı ermənilərin törətdikləri soyqırımını əks etdirən qısametrajlı film nümayiş etdirildi.

Memorial Soyqırımı Muzeyini ziyarət kursantlar üçün çox səmərəli və əhəmiyyətli oldu. Onlar burada ermənilərin zaman-zaman Azərbaycan xalqına qarşı törətdikləri soyqırımı haqqında yeni-yeni məlumatlar öyrəndilər. Belə ziyarətlər ordumuzun gələcək zabitlərinin hərbi vətənpərvərlik ruhunda böyüməsinə müsbət təsir göstərir. Buna görə də Hərbi liseyin rəhbərliyi tərəfindən belə səmərəli tədbirlər müntəzəm olaraq keçirilir.

**"Azərbaycan Ordusu"**

# Azərbaycan Ordusunda cüdo, yunan-Roma və sərbəst güləş üzrə birincilik keçirildi

*Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi Azərbaycan Ordusunun 2019-cu tədris ilinin hazırlıq planına əsasən, Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin bazasında cüdo, yunan-Roma və sərbəst güləş üzrə birincilik keçirildi. Yarışda hərbi birləşmələri, qoşun növü və qismlərini, xüsusi təyinatlı hərbi təhsil müəssisələrini təmsil edən idmançılar iştirak etdilər.*






Yarışın açılış mərasimi ümummilli liderimiz Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başladı. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.

Müdafiə Nazirliyi Döyüş Hazırlığı və Hərbi Təhsil Baş İdarəsinin Döyüş Hazırlığı İdarəsinin Fiziki Hazırlıq və İdman şöbəsinin rəisi polkovnik Sadiq Paşayev yarış iştirakçılarını salamlayaraq onlara uğurlar arzuladı. Layiqli idmançının qalib gələcəyinə ümidvar olduğunu bildirdi. Müdafiə Nazirliyinin rəhbərliyi tərəfindən şəxsi heyətin fiziki hazırlığına daim diqqət yetirildiyini dedi. Vurğuladı ki, fiziki hazırlıq döyüş hazırlığının mühüm və ayrılmaz hissəsi olmaqla, eyni zamanda Azərbaycan Ordusunun döyüş qabiliyyətinin yüksəldilməsini şərtləndirən amillərdən biridir. Şöbə rəisi qeyd etdi ki, hərbi qulluqçuların fiziki cəhətdən möhkəm və güclü olmaları onların döyüş ruhunu daha da artırır. "Belə yarışların keçirilməsi qabaqcıl təcrübə mübadiləsinin ən yaxşı vasitəsidir. Əsas məqsəd ordumuzda idmanın bu növlərinə maraq yaratmaq, hərbi qulluqçular arasında fiziki keyfiyyətləri inkişaf etdirmək və zəruri səviyyədə saxlamaqdır. Hər zaman olduğu kimi, bu yarışda da iştirakçılardan gərgin mübarizə, əzmkarlıq və qətiyyət gözləyirik."

"Azərbaycan Respublikası Silahlı Qüvvələrində idman və hərbi-idman yarışlarının təşkili, keçirilməsi və yarış qaydaları"nın tələblərinə uyğun olaraq keçirilən yarışları Azərbaycan Cüdo və Güləş Federasiyasından dəvət olunmuş hakimlər idarə edirdilər. Təntənəli açılış mərasimindən sonra hakimlər tərəfindən iştirakçılara qaydalar haqqında ətraflı məlumat verildi.

Yarışların ilk günü idmançılar sərbəst güləş növündə güclərini sınamaq üçün döşək üzərinə çıxdılar. 8 çəki üzrə təşkil olunan yarışda 57 kiloqram çəkidə əsgər Telman Əliyev ("Beyləqan"), 61 kiloqramda əsgər Əfqan Xafalov ("Bərdə"), 65 kiloqramda əsgər Orxan İsmayılov ("Beyləqan"), 70 kiloqramda əsgər Məhəmməd Abdullayev ("Beyləqan"), 74 kiloqramda leytenant Sahib Musazadə ("Beyləqan"), 86 kiloqramda əsgər Ruslan Abdullayev ("Hərbi Polis"), 97 kiloqramda əsgər Süleyman Mehdiyev ("Şəmkir"), 125 kiloqramda əsgər Cavid Feyziyev ("Bərdə") bütün rəqiblərini məğlub edərək fəxri kürsünün ən yüksək pilləsinə qalxdılar. Komanda hesabında qələbəni "Beyləqan" komandası qazandı. İkinci yerdə "Bərdə", üçüncü yerdə "Şəmkir" komandası qərarlaşdı. İkinci qrup üzrə isə "TTM" komandası qalib gəldi.

İdmançılar yunan-Roma güləşi üzrə də 8 çəki dərəcəsində güclərini sınadılar. Birincilikdə 59 kiloqram çəkidə əsgər Nurlan Dadaşov ("Beyləqan"), 66 kiloqramda əsgər Qədir Qədirov ("Beyləqan"), 71 kiloqramda əsgər Xəyal Əliyev ("MTT"), 75 kiloqramda əsgər Sənan Süleymanov ("Artilleriya"), 80 kiloqramda əsgər Natiq Niftəliyev ("Bərdə"), 85 kiloqramda əsgər Şəmistan Quluzadə ("Şəmkir"), 98 kiloqramda əsgər Uğur Hacılı ("Bərdə"), 130 kiloqramda isə əsgər Orxan Nuruyev ("Bərdə") qızıl medallara layiq görüldülər. Xal hesabına görə "Bərdə" komandası birinci, "Beyləqan" komandası ikinci, "Şəmkir" komandası üçüncü oldu. İkinci qrup üzrə "TTM" komandası qalib gəldi.

Cüdo üzrə ordu birinciliyində idmançılar 7 çəki dərəcəsində güclərini sınadılar. Keçirilən görüşlərdə 60 kiloqram çəkidə əsgər Vüqar Şirinov ("HHM"), 66 kiloqramda əsgər Davud Məmmədsoy ("Bərdə"), 73 kiloqramda əsgər Yusif Heydərov ("Şəmkir"), 81 kiloqramda əsgər Kamran Əsgərov ("Şəmkir"), 90 kiloqramda əsgər Naim Hüseynov ("Şəmkir"), 100 kiloqramda əsgər Sərdar Səfixanov ("Şəmkir"), +100 kiloqram çəki dərəcəsində əsgər Vüsal Həsənov ("Şəmkir") birinci yerlərə layiq görüldülər. Hesabında olan xallara görə birinci yeri "Şəmkir" komandası, ikinci yeri "Bərdə" komandası, üçüncü yeri isə "Beyləqan" komandası tutdu. İkinci qrup üzrə isə "Sülhməramlılar" komandası qalib gəldi.

Yarış zamanı qalib idmançıların bir neçəsi ilə həmsöhbət olub, düşüncələrini öyrəndik. İlk həmsöhbətimiz əsgər Orxan İsmayılovdur.

**- Finaladək görüşlərinizi izlədim. Rəqibləriniz arasında güclü idmançılar çox idi...**

Yarışa ciddi hazırlaşmışdım. Məqsədim uğur qazanmaq idi. Mənə göstərilən etimadın məsuliyyəti çiyinlərimə əlavə yük qoyurdu. Əsas hədəfim, şübhəsiz, birincilik idi. İdmançı gərək hər vəziyyətə hazır olsun. Daim bir baş üstün olmaq lazımdır ki, rəqibə şans yeri qalmasın. Rəqiblərim arasında hazırlıqlı idmançılar var idi. Demək olar ki, hamısı birinciliyə iddialı idi. İlk görüş xaric, yarış zamanı digər rəqiblərimin çıxışlarını izləyərək hər şeyi bütün incəliyinədək təhlil edirdim.



Rəqiblərimin zəif və güclü tərəflərini müəyyənləşdirirdim. Bəzi görüşlər, həqiqətən, bir qədər gərgin keçdi. Baxmayaraq özümü həm fiziki, həm psixoloji cəhətdən yarışa kökləmişdim, bütün görüşlərimdə həyəcan da var idi. Şükürlər olsun ki, qalibiyyəti əldən verməmdim. Qazandığım nailiyyət mənə yorğunluğu unutdurdu, əlavə güc verdi. Ən böyük arzum beynəlxalq səviyyəli yarışlarda ordumuzu layiqincə təmsil etmək, bayrağımızı dalğalandırmaqdır.

Növbəti həmsöhbətim əsgər Natiq Niftəliyevdir.

**- Qalibiyyət münasibəti ilə sizi təbrik edirəm. Yarışlara necə hazırlaşmışdız?**

- Çox sağolun. İdmana marağım kiçik yaşlarımdan var. Amma güləşi sevdiyim qədər inanmıram ki, hansısa idman növünü belə sevim. Uşaqlıqdan həmişə özümə güvənmişəm. Əsas məqsədim iştirak etdiyim bütün yarışlarda qalib gəlmək olub. Yarışa gəlincə, gərgin hazırlıq prosesi keçmişdim. Hərbi hissəmizdə hazırlıq üçün hər cür şərait var. Mövcud şərait, zəruri idman inventarları bizə yarışa hazırlığımıza əlverişli imkan yaradır. Ali Baş Komandanımız tərəfindən ordumuza göstərilən diqqət və qayğı bizə əlavə stimul verir. Həm fiziki, həm də psixoloji cəhətdən tam hazırlığım birinciliyimi şərtləndirən əsas amillər oldu. Təcrübəmdən faydalanaraq finaladək inamla irəlilədim. Qəribə bir enerjim var idi, özümə inanırdım. Var qüvvəmi sərf etmişdim. Həyəcandan, ümumiyyətlə, söhbət gedə bilməzdi. Yalnız qələbəyə köklənmişdim. Şükürlər olsun ki, yarışın baş mükafatını qazandım. İlk növbədə yarışın keçirilməsində böyük dəstəyə görə Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlığımı bildirirəm.

Builki cüdo birinciliyi iştirakçıların yaddaşından heç vaxt silinməyəcək. "Şəmkir" komandasının təmsilçiləri 7 çəki dərəcəsinin 6-da medal aktivlərini zənginləşdirdilər. Bunlardan 5-nin qızıl medal olduğunu nəzərə alsaq, komandanın bu yarışa ciddi şəkildə hazırlaşdığını əminliklə söyləyə bilərik. Fürsət tapıb qalib komandanı bu yarışa hazırlayan leytenant Eldar Qurbanov ilə həmsöhbət olduq. Eldar uzun müddət idmanın taekvondo növü ilə məşğul olub. Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasını bitirib. Hələ kiçik yaşlarından uğurlu nəticələr əldə edib. 4 dəfə respublika çempionu olan müsahibim beynəlxalq yarışlarda da ölkəmizi layiqincə təmsil edib. 2006-cı ildə Vyetnamda keçirilən dünya birinciliyində bürünc medal qazanıb. 2007-ci ildə ölkəmizdə keçirilən Avropa birinciliyində qızıl medalı qazanıb. Dəfələrlə A və B kateqoriyalı yarışlarda iştirak edərək, mükafatçılar sırasına düşməyi bacarıb.

**- Cənab leytenant, komandanın uğurunda idmançılarla bərabər əsas pay sahibi, heç şübhəsiz, məşqçidir. Yarış haqqında fikirlərinizi öyrənmək maraqlı olardı...**

- Bu uğurun təməlində gərgin məşqlər və idmançıların peşəkarlığı, istedadı dayanır. Komandamızın hər bir üzvü yarışa ciddi şəkildə hazırlaşmışdı. Ümumi əhval-ruhiyyə yüksək səviyyədə idi. Tam olaraq qələbəyə köklənmişdik. Tək hədəfimiz yarışdan qızıl medalla qayıtmaq idi. Komandamızın üzvlərinin fiziki və taktiki hazırlığı qələbə qazanmağımızı labüd edirdi. Bir məşqçi kimi hər bir təmsilçimizin qalib olacağına inanırdım. Onların bu mötəbər yarışda öz bacarıqlarını layiqincə nümayiş etdirəcəklərinə tam əmin idim. Təmsilçilərimizin bütün görüşləri gərgin keçdi. İştirakçıların ciddi hazırlığı açıq hiss olunurdu. Lakin bu yarışdır, ən güclülər qalib gəlir. Komanda təmsilçilərimizin bir-birini əvəz edən qələbələri bizi daha da ruhlandırırdı. Bütün üzvlərimiz ilə fəxr edirəm. Hakimlər də yarış zamanı ədalətli qərarlar qəbul etdilər. Ümumilikdə komandamızın çıxışını yüksək dəyərləndirirəm. Ümid edirəm ki, digər yarışlarda da qızıl medallar qazanaraq, bizə göstərilən etimadı doğruldacağıq.

Sonda polkovnik Sadiq Paşayev qalib gələn komandaları və idmançıları qazandıqları nailiyyətlər münasibətilə təbrik etdi, onlara yeni-yeni qələbə sevincləri arzuladı.

Yekunda birinci, ikinci və üçüncü yerləri tutmuş komanda və idmançılara kubok, medal və diplomlar təqdim edildi.

Sonda xatirə şəkilləri çəkildi.

**Leytenant**
**Samir HÜSEYNOV,**
**"Azərbaycan Ordusu"**

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
baş leytenant
Ruslan HƏSƏNZADƏ

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 260
Nüsxə 3950